Azərbaycan
Milli Antidopinq Agentliyi

# 2019 illik hesabat



AMADA
STAY CLEAN

AMADA

STAY CLEAN

# Dürüst idmançılar üçün ədalətin təmini

# MÜNDƏRİCAT

**1**

4 **AZƏRBAYCANIN TƏMİZ İDMANA MÜNASİBƏTİ**

6 **Direktordan ön söz**

8 **AMADA**

Missiya
Rol
Dəyərlər
Prioritetlər
10 Strateji məqsədlər

**2**

12 **MİLLİ ANTİDOPİNQ STRUKTURU**

14 AMADA
16 Struktur
18 Müşahidə Şurası
Müstəqil dinləmə qurumları
Müstəqil Terapevtik İstifadəyə İcazə qurumu
Qanunvericilik
19 Uyğunluq

**3**

20 **İDARƏÇİLİK**

22 Prinsiplər
23 İdarəetmə
Keyfiyyətin təminatı
İnsan Resursları

**4**

24 **TEST PROQRAMI**

26 Milli Test Proqramı
29 Beynəlxalq Test Sifarişləri
30 Test Bölüşdürmə Planı
34 Əsas tədbirlər

5

36 **TƏHSİL VƏ MAARİFLƏNDİRMƏ**

38 Təhsil
39 Məlumatlılığın artırılması
Ali Təhsil İctimaiyyəti
Əsas tədbirlər
42 Seminarlar və vorkşoplar
44 Təhsil və maarifləndirmə fəaliyyəti üzrə xronoloji qrafik

6

48 **ARAŞDIRMA VƏ TƏHQİQATLAR**

50 Araşdırma
Məlumat kanalları
Təhqiqatlar
52 Qanunsuz dövriyyə
Fitnes mərkəzləri
Kontaminasiyaya uğramış Qida Əlavəsi üzrə iş
İdman göstəricilərini artıran dərmanlara dair sorğu

7

54 **ANTİDOPİNQ QAYDA POZUNTULARI**

56 Nəticələrin emalı prosesi
İşlərin idarə edilməsi komissiyası
58 2019-cu il üzrə AQP
59 Hüquqi Yardım

8

60 **ƏMƏKDAŞLIQ VƏ TƏRƏFDAŞLIQ**

62 Ölkədaxili əlaqələndirmə
Beynəlxalq münasibətlər
64 Azərbaycan Antidopinq xronoloji qrafiki
66 İdmançıların cəlb edilməsi
İdmançılar Məsləhətçi Komissiyası
67 AMADA İdmançılar Məsləhətçi Komissiyası üzvlərinin nailiyyətləri

9

68 **İNNOVASİYALAR**

70 İnnovativ yanaşma
Texnoloji irəliləyişlər
Blokçeyn əsaslı reyestr
71 iQuiz
Hakaton

10

72 **AMADA - QLOBAL TƏRƏFDAŞ**

74 Beynəlxalq fəaliyyət
76 Beynəlxalq iştirak

78 **QISALTMALARIN SİYAHISI**

# AZƏRBAYCANIN TƏMİZ İDMANA MÜNASİBƏTİ



*"İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur."*

*Heydər Əliyev*

Azərbaycan bir idman ölkəsi kimi dopinqlə mübarizədə və ədalətli oyunun təşviqində maraqlıdır və 2004-cü ildə Avropa Şurasının Antidopinq Konvensiyasını və 2007-ci ildə YUNESKO-nun İdmanda Dopinqə Qarşı Beynəlxalq Konvensiyasını imzalamaqla bunu nümayiş etdirmişdir.



Müstəqil, şəffaf və bitərəf milli antidopinq təşkilatının yaradılması dövlətin idmana göstərdiyi əhəmiyyətli dəstəyin təzahürüdür. Azərbaycan təmiz idmanın monitorinqi üçün vahid çərçivə müəyyən etmiş və 2016-cı ilin son rübündə ölkədə antidopinq siyasətinin həyata keçirilməsinə cavabdeh olan vahid qurum kimi Azərbaycan Milli Antidopinq Agentliyini təsis etmişdir.

Azərbaycan idmanda qlobal qanunsuz fəaliyyətlərin və dopinq fırıldaqlarının artan miqyasını nəzərə alaraq təmiz idmanının müdafiəsini mühüm və təxirəsalınmaz məsələ hesab edir. Son illər antidopinq proqramlarına etibarın gücləndirilməsi zərurəti və güclü dövlət tənzimlənməsi əsas prioritet təşkil edir.

Bunu nəzərə alaraq, Azərbaycan milli antidopinq təşkilatını təsis etməklə antidopinq səylərinin gücləndirilməsini və idmanda dopinqlə mübarizənin dəstəklənməsindəki əzmini nümayiş etdirir. Dövlətin davamllı dəstəyi ilə  Azərbaycan Milli Antidopinq Agentliyi öz insan resurslarının ixtisaslarını artırır, araşdırma və təhsil potensialını təkmilləşdirir,innovativ üsullara sərmayə qoyur və bununla da dopinq pozuntularına qarşı güclü preventiv, qarşısını alan və aşkarlayıcı tədbirlər görməklə irəliyə doğru addımlayır.

Xüsusiləşdirilmiş qanunvericilik və antidopinq təşkilatının müstəqilliyi şəraitində fəaliyyət göstərən Azərbaycan Milli Antidopinq Agentliyi Azərbaycan idmanının dürüstlüyü uğrunda həm milli, həm də beynəlxalq səviyyələrdə mübarizə aparmaq və təmiz idmanı təşviq etmək üçün müvafiq səlahiyyətlərə malikdir və bunu qarşısında məqsəd kimi qoyur.

# Direktordan ön söz

## *Dürüst idmançılar üçün ədalətin təmini*

Bu gün AMADA-nın timsalında Azərbaycan dövləti dopinqlə mübarizədə qətiyyətini və təmiz idman prinsiplərinə sadiqliyini nümayiş etdirir. Yarandığı qısa müddət ərzində Azərbaycan Milli Antidopinq Agentliyi beynəlxalq standartların, qabaqcıl təcrübələrin və müasir innovativ üsulların tətbiqi ilə ölkədə dopinq nəzarəti prosesini uğurla həyata keçirir.

AMADA beynəlxalq tədbirlərdə aktiv iştirakı, irəli sürdüyü təşəbbüsləri, qlobal antidopinq prosesinə verdiyi töhfələri ilə beynəlxalq səviyyədə etibarlı və mötəbər bir təşkilat kimi tanınmaqdadır. Bizim fəaliyyətimizin əsasını təmiz idmana sadiqlik, dürüst idmançıların hüquqlarının qorunması və idmanda ədalət prinsipinin təmin edilməsi təşkil edir. AMADA məhz bu dəyərləri qorumaq üçün müstəqil qərarlar qəbul edən təşkilatdır. Biz fəaliyyətimiz dövründə minlərlə idmançı ilə işləmişik və idmanın onların həyatında daşıdığı əhəmiyyətin fərqindəyik. Məhz bu səbəbdən onların həyatının ayrılmaz hissəsinə çevrilən idmanı təmiz saxlamaq, onların təmiz və ədalətli idmana olan etimadını qorumaq vacibdir!

İdman sağlamlığı, dostluğu və dürüst rəqabəti təşviq edən bəşəri dəyərdir. Bütün dünyanı birləşdirən bu dəyərin təmiz saxlanılması isə vacibdir.

Bizim mübarizəmiz sağalmlıq və təmiz idman üçündür.

Məqsədimiz dürüst idmançılar üçün ədalətin təminidir.



*Şəfəq Hüseynli*


AMADA
STAY CLEAN

## Missiya

Azərbaycan idmanının dürüstlüyünün və idmançıların sağlamlığının qorunması

## Rol

Dopinqin aşkarlanması və qarşısının alınması

## Dəyərlər

Dürüstlük. Şəffaflıq. Hesabatlılıq.

## Priorietlər

Təmiz idmanı təmin etmək və
dürüst idmançıların hüquqlarını qorumaq




# Strateji Məqsədlər

**1** AMADA öz imkan və xidmətlərinin səmərəli və effektiv çatdırılması məqsədilə idarəetməni təkmilləşdirərək şöbələri yenidən təşkil edib və yeni struktur bölmələri yaradıb. AMADA şəffaflıq və hesabatlılığa davamlı sadiqliyini nümayiş etdirir.

AMADA-nın insan resursları strategiyası təlim və bacarıqların inkişafı, rəhbərlik qabiliyyətlərinin artırılması, istedadlı kadrların cəlb edilməsi, münbit iş mühiti, adekvat maaş prinsipləri üzərində qurulub. Məqsəd AMADA-nın iş üçün cəlbedici yer olmasını təmin etməkdir.

**2** AMADA hərtərəfli və dəyərlərə əsaslanan təhsil vasitəsilə idmançıları, onların düzgün seçimlər etmələri və cəmiyyətə töhfə vermələrini hədəfləyən keyfiyyətli maarifləndirmə ilə təmin edir.

AMADA keyfiyyəti artırmaq və əhatəni genişləndirərək müxtəlif qrupları əhatə etmək məqsədilə, onlayn və ənənəvi tədris üsullarını inteqrasiya etməklə çoxsəviyyəli təhsil proqramını tərtib etmiş və həyata keçirmişdir.

**3** AMADA dopinq problemini effektiv cavablandırmaq və dopinqdən azad idman ruhu və mədəniyyətinin təşviqi üçün milli və beynəlxalq səviyyədə əməkdaşlığı gücləndirir. Bu məqsədlə idmançılar, köməkçi heyəti, idman təşkilatları, hüquq-mühafizə orqanları, nəzarət qurumları, səhiyyə sektoru, media, elm və təhsil müəssisələri, könüllülər və beynəlxalq təşkilatlarla əməkdaşlığı mütəmadi olaraq genişləndirir.




**4** İnnovasiya iş mədəniyyətinin özülündədir. AMADA ən müasir təhqiqat qabiliyyətləri və həllərini əldə etmək üçün gələcək meyllərə diqqət yetirir, rəqəmsal alətlərə və infrastruktura sərmayə qoymağa davam edir.

AMADA texniki infrastrukturunu təkmilləşdirməyə davam edir, çünki innovasiya antidopinq araşdırma və təhqiqat qabiliyyətinin müvəfəqiyyətlə yaradılması üçün həlledici əhəmiyyətə malikdir.

AMADA idman göstəricilərini artıran qadağan edilmiş dərmanların qanunsuz dövriyyəsi ilə mübarizə aparır, bu barədə ictimai müzakirələri sövq edir və hüquq-mühafizə orqanları və tənzimləyici qurumları ilə əməkdaşlıq edir.

**5** AMADA idmançıları antidopinq qərarvermə prosesinə cəlb etməklə qarşılıqlı etibar və sıx əməkdaşlıq mühiti yaradıb.

AMADA idmançıların hüquqlarının qorunmasına böyük əhəmiyyət verir. Strateji planlaşdırmada idmançıların ümumi inkişafını dəstəkləyən proqram və xidmətlər vasitəsilə əks-əlaqəni təmin edir, onların ideya və təklifləri dəyərləndirilir.

**6** Təmiz ətraf mühit əhəmiyyətlidir! Daha yaxşı gələcək naminə AMADA təmiz mühit siyasətinə sadiqdir. Bunun üçün:

- Biz test keçirilməsi prosesində kağızdan istifadə etməyərək elektron həllər seçirik.
- Biz ətraf mühiti daha təmiz sağlamağa və yeni dünyanın bir parçası olmağa çalışırıq.
- Ətraf mühiti daha da təmiz etmək üçün yollar axtarırıq.
- Təkrar istifadəyə üstünlük veririk.
- Biz kağızsız həllərdən istifadə edirik.
- Biz plastikdən daha az istifadə edirik.
- Biz həddindən artıq istifadə etmirik.
- Biz hər zaman qənaət edirik.
- Biz israfçılığın əleyhinəyik!

# 2 MİLLİ ANTİDOPİNQ STRUKTURU

**7** Şöbə

**3** Müstəqil Komitə

**16** Komitə Üzvləri

Antidopinq Qanunu

YUNESKO və Avropa Şurasının Konvensiyalarına, həmçinin Ümumdünya Antidopinq Məcəlləsinə uyğunluq

ÜADA tərəfindən audit edilmə

**Təsis edilmə tarixi**

## 23 dekabr 2016

**Müşahidə Şurası**

## 7

Üzv



# MİLLİ ANTİDOPİNQ STRUKTURU

## AMADA

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) ölkənin milli antidopinq təşkilatıdır. AMADA 23 dekabr 2016-cı ildə "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa və onun tətbiqinə dair Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən yaradılmışdır. AMADA publik hüquqi şəxsdir. Publik hüquqi şəxs, Azərbaycan Respublikasının hüquqi sistemində dövlət tərəfindən hüquqi şəxs kimi təsis edilən, lakin ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan təşkilat növüdür.

Qanuna əsasən AMADA ölkə ərazisində miilli antidopinq siyasətinin tətbiq edilməsi və monitorinqi üzrə yeganə səlahiyyətli qurumdur. AMADA Ümumdünya Antidopinq Məcəlləsinə (Məcəllə) imza edən tərəfdir. Bununla, AMADA Məcəllənin və müvafiq beynəlxalq standartların tələblərinə uyğun qaydada fəaliyyət göstərməlidir.

## AMADA-nın əsas funksiyaları

- idmançıların və onların köməkçi heyətinin hüquqlarını və idmançıların sağlamlığını qorumaq məqsədi ilə idmanda dopinqsiz iştirakı təbliğ etmək;
- idmanda dopinqdən istifadənin qarşısının alınması məqsədi ilə maarifləndirmə fəaliyyətini həyata keçirmək;
- idmanda dopinqdən istifadənin qarşısının alınması və onunla mübarizə ilə bağlı strategiyanı hazırlamaq;
- Ümumdünya Antidopinq Məcəlləsinin müddəalarını yerinə yetirmək və Azərbaycan Respublikasının dopinqlə bağlı tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət etmək;
- idman subyektlərindən toplanmış bionümunələrin testlərinin keçirilməsi daxil olmaqla ölkədə antidopinq fəaliyyətini təmin etmək;
- antidopinq ilə bağlı qayda və beynəlxalq standartların tətbiq olunmasını təmin və təbliğ etmək;
- Məcəlləyə və ÜADA tərəfindən işlənib hazırlanmış standartlara uyğun olaraq bionümunələrin toplanması və testin keçirilməsi ilə bağlı prosedurlar haqqında idmançıları və onların köməkçi heyətini məlumatlandırmaq;
- antidopinq ilə bağlı qaydalara və beynəlxalq standartlara uyğun olaraq idmançılardan bionümunələri toplamaq və onların test üçün ÜADA tərəfindən akkreditasiya edilmiş laboratoriyalara təhlükəsiz şəkildə daşınmasını təmin etmək;
- milli antidopinq qurumunun qaydalarına uyğun olaraq antidopinq qayda pozuntuları ilə bağlı məsuliyyətin həyata keçirilməsini təmin etmək;
- Məcəllənin normalarına riayət etmək və onun tətbiq olunması üçün zəruri tədbirləri görməkdir.

Ümumdünya Antidopinq Məcəlləsi dünya üzrə aidiyyatı idman təşkilatları və dövlət qurumlarının antidopinq qaydalarını və normalarını tənzimləyən əsas sənəddir. Antidopinq təşkilatlarının müxtəlif sahələr üzrə vahid qaydada fəaliyyət göstərməsi üçün məcəlləyə əsasən 6 standart tətbiq edilir.

AMADA-nın məcəlləni imzalayan tərəf kimi digər öhdəlikləri vardır: öz fəaliyyətində və əməliyyat qərarlarında müstəqil olmaq; Məcəlləyə uyğun olan antidopinq qaydalarının qəbul və tətbiq etmək; digər müvafiq milli təşkilatlar, agentliklər və digər antidopinq təşkilatları ilə əməkdaşlıq etmək; Milli Antidopinq Təşkilatları arasında qarşılıqlı test keçirilməsini sövq etmək; antidopinq üzrə elmi tədqiqatlarını təşviq etmək; öz yurisdiksiyası daxilində bütün antidopinq qayda pozuntularını təqib etmək və antidopinq təhsilini təşviq etmək.

Məcəlləyə uyğun olaraq AMADA milli Antidopinq Qaydalarını qəbul və tətbiq edir. Bu Antidopinq Qaydaları ölkə ərazisində bütün idmançılar, idmançılara köməkçi heyət, respublika idman federasiyaları və digər idman subyektlərinə şamil edilir. Respublika idman federasiyaları, digər idman subyektləri, idmançılar, idmançılara köməkçi heyət üzvləri Qanuna əsasən avtomatik qaydada AMADA-nın yurisdiksiyasını tanıyır və qəbul edir. Müvafiq olaraq AMADA-nın Antidopinq Qaydaları avtomatik olaraq bütün qeyd edilən şəxslərə və qurumlara tətbiq edilir.

Əlavə olaraq Qanuna əsasən, Antidopinq Qaydalarında qeyd edilən test, təhsil, tədqiqat, araşdırma və təhqiqatlar və digər antidopinq sahələrini ehitva edən geniş milli antidopinq proqramının icra edilməsi üçün AMADA tam səlahiyyətə malikdir. Həmçinin, bu səlahiyyətə həmin sahələr üzrə siyasət, proqram, qayda və prosedurlar yaratmaq aid edilir.

Məcəllədə qeyd edilən prinsiplərdən savayı AMADA Qanunda qeyd edilən idmanda dopinqlə mübarizə sahəsində əsas prinispləri rəhbər tutur. Bunlara beynəlxalq öhdəliklərə dövlət tərəfindən hörmətlə yanaşılması və riayət edilməsi, qanunçuluq, beynəlxalq və milli idman subyektlərinin qarşılıqlı fəaliyyəti, məxfilik, hüquq və azadlıqların təmin edilməsi, dopinq nəzarətinin məcburiliyi və dürüst oyunun təmin edilməsi daxildir.

AMADA-nın təşkilati strukturu Müşahidə Şurası və direktor tərəfindən idarə edilən icraiyyə strukturundan ibarətdir.

AMADA-nın İcraiyyə İdarəçiliyi test, araşdırma və təhqiqat, hüquq, təhsil, elm, media və kommunikasiyalar və maliyyə və insan resursları sahələrinə cavabdeh olan yeddi şöbədən ibarətdir. Hər şöbə anitdopinq fəaliyyətinin müxtəlif sahələri üzrə cavabdehdir, məcəllə və beynəlxalq standartların müddəalarına uyğun şəkildə fəliyyət göstərir. AMADA-nın 18 işçisi və mülki müqavilə əsasında cəlb edilən 36 dopinq və qan nəzarəti inspektorları, həmçinin müşaiyətçiləri var.

# Struktur


Direktor Müavini
Müşahidə Şurası
Direktor
Direktor Müavini
TİI Komitəsi
İntizam Komitəsi
Apellyasiya Komitəsi


Test Şöbəsi
Şöbə Müdiri
Logistika üzrə Menecer
Hüquq Şöbəsi
Şöbə Müdiri
Hüquqşünas
Təhsil Şöbəsi
Şöbə Müdiri
Dəyərlərə əsaslanan Təhsil üzrə Menecer
Media və Kommunikasiyalar Şöbəsi
Şöbə Müdiri
Kreativ Layihələr üzrə Menecer
Elm Şöbəsi
Şöbə Müdiri
Tibb və Elm üzrə Menecer
Maliyyə və İnsan Resursları Şöbəsi
Şöbə Müdiri
İnsan Resursları üzrə Menecer
Mühasib
Araşdırma və Təhqiqatlar Şöbəsi
Şöbə Müdiri
Təhqiqat üzrə Menecer

## Müşahidə Şurası

AMADA-nın Müşahidə Şurası idman, səhiyyə, ədliyyə sahələrinin nümayəndələri, Milli Olimpiya Komitəsi və Milli Paralimpiya Komitəsinin nümayəndələri, keçmiş idmançı və AMADA-nın Direktoru daxil olmaqla yeddi üzvdən ibarətdir.

Müşahidə Şurası AMADA-nın yaradılması məqsədlərinin ən yaxşı şəkildə dəstəkləyən qaydada Agentliyin aktivlərini müşahidə etmək, kapital və təkrarlanan xərclər və Agentliyin rezervləri üçün lazım olan ehtiyatları müəyyən etmək funskiyalarına malikdir.

## Müstəqil dinləmə qurumları

Ədalət, bitərəflik və müstəqilliyin təmin edilməsi məqsədilə "İdmanda doping vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq AMADA-dan əməliyyat və təşkilati qaydada müstəqil fəaliyyət göstərən iki ayrı qurum yaradılmışdır. Bunlar birinci instansiya qurumu kimi İntizam Komitəsi (İK) və apellyasiya qurumu kimi Apellyasiya Komitəsidir (AK).

Sözügedən Komitələrə Ümumdünya Antidopinq Məcəlləsi AMADA Antidopinq Qaydaları və digər tətbiq edilə bilən beynəlxalq standartlara uyğun olaraq antidopinq qayda pozuntularını dinləmək və müəyyənləşdirmək, qərar vermək və sanksiya tətbiq etmək səlahiyyətləri verilmişdir.

## Müstəqil terapevtik istifadəyə icazə qurumu

Əlavə olaraq, idmançıların sağlamlığının təmin edilməsi və qorunmasını təmin etmək üçün Terapevtik İstifadəyə İcazə (Tİİ) Komitəsi (TİİK) adlı əməliyyat və təşkilati cəhətdən müstəqil qurum yaradılmışdır. Onun məqsədi idmançılara ağlabatan və əsaslı terapevtik məqsədlər üçün qadağan edilmiş maddələr və üsullardan istifadəsinə icazə verməkdir.

## Qanunvericilik

Azərbaycan Respublikasının milli antidopinq strukturu antidopinq sistemini, bütün maraqlı tərəflərin vəzifə və öhdəliklərini, o cümlədən ölkənin beynəlxalq öhdəliklərini müəyyənləşdirən "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsaslanır. Müvafiq olaraq, AMADA antidopinq proqramını icra edən, antidopinq qaydalarını qəbul edən və idarə edən, ölkədə antidopinq siyasətinə nəzarət edən vahid səlahiyyətli qurum kimi təsis edilmişdir.

AMADA-nın icra strukturu və onun Müşahidə Şurası və həmçinin, İntizam, Apellyasiya və Terapevtik İstifadəyə İcazə Komitələri öz səlahiyyətlərinin icrasında Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının "Publik hüquqi şəxslər haqqında" Qanununa, Azərbaycan Respublikasının "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Qanununa, Ümumdünya Antidopinq Məcəlləsinə, AMADA Antidopinq Qaydalarına, Beynəlxalq Standartlara və müvafiq Nizamnamələrinə riayət edirlər.

Əlavə olaraq, dövlət tərəfindən təsis edilmiş təşkilat olaraq AMADA-nın Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş Avropa Şurasının Antidopinq Konvensiyasının və YUNESKO-nun İdmanda Dopinqə Qarşı Beynəlxalq Konvensiyanın tələblərinə riayət etmək öhdəliyi vardır.

# Uyğunluq

Qlobal antidopinq sistemi Ümumdünya Antidopinq Agentliyi (ÜADA) tərəfindən Ümumdünya Antidopinq Məcəlləsi və İmzlalayan tərəflərin Məcəlləyə Uyğunluğu üzrə Beynəlxalq Standarta əsasən monitorinq edilir.

Əlavə olaraq, ölkənin beynəlxlaq öhdəlikləri ilə əlaqədar Antidopinq Konvensiyasına riayət Avropa Şurasının, Monitorinq Qrupu və İdmanda Dopinqə Qarşı Beynəlxalq Konvensiyaya riayət isə YUNESKO-nun Tərəflərin Konfransı tərəfindən monitorinq edilir.

Vahid qayda olaraq hər İmzalayan tərəf və ya Üzv dövlət beynəlxlaq səviyyədə idman fəaliyyətlərində iştirak etmək hüququna malik olmaq üçün Məcəllə və Beynəlxalq Konvensiyalara riayət etməlidirlər.

## ÜADA Auditi

ÜADA-nın qlobal tənzimləyici qurum kimi əsas rolu bütün idman növləri və ölkələr üzrə antidopinq qaydalarını və siyasətlərini hazırlamaq, uyğunlaşdırmaq və əlaqələndirmək, Məcəllə və ona bağlı Beynəlxalq Standartların effektiv icrasını təmin və monitorinq etməkdir.

AMADA-nın Məcəlləyə İmza tərəfi kimi ÜADA-nın Uyğunluq Monitorinqi Proqramı çərçivəsində monitorinq edilməli bir sıra uyğunluq öhdəlikləri vardır. Müvafiq olaraq, ÜADA-nın Uyğunluq Monitorinqi Proqramının hissəsi kimi AMADA audit edilmiş və 24-25 sentyabr 2019-cu il tarixlərində Azərbaycan antidopinq proqramının rəsmi qiymətləndirilməsi keçirilmişdir.

AMADA-nın məqsədlərinə nail olması üçün effektiv və öhdəliklərə riayət edən sistemin dəstəklənməsi həlledici məsələdir və inkişaf üçün zəruri amildir. Nəticə olaraq, AMADA ÜADA tərəfindən müvəffəqiyyətlə auditdən keçmiş, Məcəllə və Beynəlxlaq Standartlara tam uyğun bəyan edilmişdir.

6 Prinsip

İnnovativ İdarəçilik Yanaşması

- İctimai Xidmət
- Sosial Ədalət
- Ədalətlilik
- Effektivlik
- Hesabatlılıq

# 3 İdarəçilik



# Gender Bərabərliyi

# Peşəkar Məsuliyyət Sığortası

ISO 9001:2015
Sertifikatlaşdırılmışdır

iQNet
Sertifikatlaşdırılmışdır

# Prinsiplər

AMADA-nın idarəçilik prinsiplərinin əsasları:

- AMADA dövlət qurumları və ictimaiyyətlə öz öhdəliklərinə aid açıq, etibarlı və müvafiq ünsiyyət qurur.
- AMADA-nın əməliyyat fəaliyyətləri Müşahidə Şurasından, dövlət qurumlarından və idman təşkilatlarından tamamilə müstəqildir.
- AMADA Şura üzvləri və İcra İdarəçiliyi arasında heç bir maraq münaqişələrinin olmamasının təmin edilməsinə xüsusi diqqət ayırır.

## Yaxşı İdarəçiliyin Əsasları

- Açıqlıq və şəffaflıq
- Dürüstlük
- Hesabatlılıq

## Təşkilati Struktur və Proseslər

- Normativ hesabatlılıq
- Dövlət maliyyəsinə görə hesabatlılıq
- Maraqlı tərəflərlə ünsiyyət
- Vəzifə və öhdəliklər

## Daxili Nəzarət

- Risk və vaxtın idarəedilməsi
- Daxili audit
- Büdcə planlaşdırılması
- Daxili siyasət və prosedurlar
- Heyət üçün təlimlər

## İnsan Resursları

- Məsuliyyət
- Səlahiyyət
- Gender bərabərliyi

## Davranış Standartları

- Liderlik
- Etika Məcəlləsi
- Qanunun aliliyi, obyektivlik, bitərəflik, dürüstlük və şəffaflıq

## Kənar Hesabatlılıq

- İllik hesabatların təqdim edilməsi
- Kənar audit
- Şəffaf mühasibat və maliyyə hesabatlığı



# İdarəetmə

## İnnovativ İdarəetmə yanaşması

AMADA PHŞ-dir və qanunvericilyə əsasən "dövlət və bələdiyyə adından və ya publik hüquqi şəxs tərəfindən yaradılan, ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır".

Təşkilatın statusuna uyğun olaraq AMADA həm publik, həm də özəl hüquq təşkilatlarının üstünlüklərini birləşdirən innovativ idarəetmə yanaşmasını tətbiq edir. Məqsəd ədalət, müstəqillik, qanunun aliliyi və dövlət maraqlarını üstün tutan, zaman və maliyyə resurslarına qənaət edən, yeni innovasiyalara açıq, proqnozlaşdırılan, çevik, ictimaiyyətə açıq və faydalı olan təşkilat yaratmaqdır.

AMADA-nın dövlət qulluğuna innovativ yanaşması dövlət qulluğunun keyfiyyətini, sosial bərabərlik, hökumət fəaliyyətinin ədalətliliyini, ətraf mühit müdafiəsini özündə birləşdirir və eyni zamanda özəl sektor idarəetmə modellərindən istifadə edərək onun effektivliyini artırır.

Məqsəd gələcəyin təşkilatını formalaşdırmaq, yüksək məhsuldarlığa nail ola bilən, uyğunlaşmağı və ən yaxşı əməkdaşları cəlb etməyi bacaran yeni təşkilat yaratmaqdır.

AMADA-nın strateji yanaşmasının əsasında İnnovasiya, Çeviklik, Cəlb etmə, Kollektiv müdriklik və Şəffafqlıq durur.

# Keyfiyyətin Təminatı

## ISO 9001:2015 və IQNet

AMADA ISO 9001:2015 və IQNet sertifikasiyasına malikdir. Təşkilat antidopinq fəaliyyətinin idarəetməsinin keyfiyyəti üzrə "AFNOR Group" müstəqil sertifikasiya qurumu tərəfindən audit və akkreditasiya edilmişdir. AMADA-nın sertifikasiyasının əhatəsi milli antidopinq proqramının təminatı, dopinq nəzarəti, nəticələrin emalı, həmçinin təhsil və preventiv tədbirlər üzrə fəaliyyəti əhatə edir.

ISO sertifikasiyasının məqsədi:

- ✓ Şəffaflıq və hesabatlılığı artırmaq
- ✓ AMADA-nın fəaliyyəti və proseslərini monitorinq etmək və təkmilləşdirməkdir.

## Təhlükəli Mallara dair Tənzimləmə üzrə Sertifikasiya

AMADA heyətinin üzvü IATA ATS Təhlükəli Malların İdarəetməsi tərəfindən verilən Kateqoriya "I" üçün Təhlükəli Mallara dair Tənzimləmə üzrə Sertifikasiyanı müvəffəqiyyətlə keçmişdir.

## Peşəkar Fəaliyyət Risklərinin Sığortalanması

AMADA yerli sığorta təşkilatı tərəfindən Peşəkar Fəaliyyət Riskləri üçün Sığorta əldə etmişdir. Sözügedən sığorta predmenti Londonda yerləşən "Lloyd's" sindikatının "A" dərəcəli şirkəti tərəfindən yenidən sığortalanmışdır.

# İnsan Resursları

İnkişafın həlledici aspekti əqlin məhsuludur və bu səbəbdən, AMADA təhsilli, yüksək ixtisaslı və xoşbəxt AMADA əməkdaşlarına sərmayə yatırır.

Komanda formasında çalışmaqla əməkdaşların təkbaşına edə biləcəklərindən daha çoxuna nail olmaq mümkündür.

Əsas məqsəd bilik əsaslı təşkilat mədəniyyətini yaratmaq, açıq, şəffaf və məsuliyyət əsaslı mühitin yaradılması vasitəsilə şöbələr və işçilər arasında əməkdaşlığı həvəsləndirmək, habelə işçiləri və onların səylərini cəmləşdirərək öz fəaliyyətlərini əlaqələndirməyə imkan yaradan struktur yaratmaqdır.

Effektiv idarəetmə innovasiyası tələbkar insanlar tələb edir və AMADA-nın yanaşması budur:

- ✓ Şəffaflıq
- ✓ Fərdi məsuliyyət

Nəticə olaraq AMADA-nın özündə cəmləşdirdiyi ağıllı, motivasiyalı, təcrübəli əməkdaşlar AMADA-nı güclü və inkişaf etmiş təşkilata çevirir.

# 4 Test Proqramı

TBP

24
İdman növü

32
İdman Kateqoriyası

Tədbirlər

28
Ümumi

1
ƏTT (AGOF)

QTQ

103
Daxil olmuş idmançı

Əsas Tədbir Testləri

177
Avropa Gənclər Olimpiya Festivalı

36
Nümunə Toplanması Heyəti

## Ümumi test

**1933**

## İllər üzrə test sayı

| 2019 | 2018 | 2017 |
|---|---|---|
| 1933 | 913 | 694 |

## Milli Test Proqramı

**1594**

- **659** Yarış müddətində test
- **935** Yarışdan kənar müddətdə test

## Beynəlxalq Test Sifarişləri

**339**

- **263** Yarış müddətində test
- **76** Yarışdan kənar müddətdə test

## İBP Proqramı

**51** İBP Pasportu



# TEST PROQRAMI

## Milli Test Proqramı

AMADA ağıllı, riskləri nəzərə alan, təhqiqatlara əsaslanan və dəyişikliklərə həssas test proqramını icra edir. AMADA elmi nailiyyətləri, sosial tədqiqatları, idman cədvəli, idman növlərinə müvafiq fizioloji tələbləri, aşkarlama pəncərələrini və s. nəzərə alaraq qadağan edilmiş maddə və üsulların aşkarlanması üçün hərtərəfli yarış müddətində və yarışdan kənar müddətdə test proqramını həyat keçirir.

### Risk qiymətləndirilməsi

Risk qiymətləndirilməsi lazımi idmançıların düzgün vaxtda hədəflənməsi vasitəsilə test proqramının effektivliyini artırır, dopinqi aşkarlamaq şansının artırtılması üçün resurlsarın necə sərf olunmalı olduğunu müəyyən edir.

### Test Bölüşdürmə Planı

AMADA risk qiymətləndirilməsi və prioritetlərin müəyyənləşdirilməsi əsasında Test Bölüşdürmə Planını (TBP) yaratmaqla testlərin səmərəli, təhqiqatlara əsaslanan və müntənasib paylaşdırılmasını planlaşdırır və həyata keçirir.

TBP idman növləri, idmançı kateqoriyaları, test növləri, toplanmış nümunə növləri və nümunə analizi növləri arasında müvafiq olaraq prioritetləri müəyyənləşdirir.

Milli Antidopinq Qaydaları Olimpiya idman növlərini və digər müəyyən idman növlərində daha yüksək dopinq təhlükəsini və onların milli idman üçün kəsb etdiyi marağı nəzərə alaraq həmin idman növlərinə daha çox diqqət ayırır.

### Yarış müddətində test

Yarış müddətində test idman yarışı zamanı həyata keçirilir. Azərbaycan Milli Antidopinq Qaydalarının yürisdiksiyası ilə əhatə olunan hər bir idman tədbiri zamanı dopinq nəzarəti testi keçirilə bilər.

Yarış müddəti idmançının sonuna qədər iştirakı planlaşdırılmış yarışdan on iki saat əvvəl başlayan və bu cür yarışın və yarışa aid nümunə toplanması prosesinin bitməsi arasında olan müddətdir.

AMADA öz proqramına əsasən həm sidik, həm də qan nümunələrini toplayır.

### Yarışdan kənar müddətdə test

AMADA tərəfindən həyata keçirilən yarışdan kənar müddətdə test proqramı bütün idmançılar üçün bərabər imkanların yaradılması baxımından əhəmiyyətlidir. Məkan məlumatı istənilən zaman idmançıların harada olduqlarının müəyyən edilməsi və effektiv antidopinq proqramının əsas elementi olan əvvəlcədən xəbərdarlıqsız testlərin keçirilməsi üçün mühüm alətdir.




**Risk qiymətləndirilməsi**
TBP üzrə idman növlərinin
risk səviyyəsi






## Test Bölüşdürmə Planı

| No | İdman | YM | YKM | Ümumi |
|---|---|---|---|---|
| 1. | Güləş - Hamısı | 120 | 115 | 235 |
| 2. | Cüdo - Cüdo | 71 | 93 | 164 |
| 3. | Boks - Boks | 76 | 86 | 162 |
| 4. | Futbol - Futbol | 69 | 92 | 161 |
| 5. | Karate - Karate | 48 | 85 | 133 |
| 6. | Taekvondo - Sparrinq | 48 | 72 | 120 |
| 7. | Ağır atletika - Ağır atletika | 62 | 57 | 119 |
| 8. | Velosiped - Şosse | 47 | 39 | 86 |
| 9. | Həndbol - Qapalı | 18 | 20 | 38 |
| 10. | Voleybol - Voleybol | 0 | 28 | 28 |
| 11. | Sambo | 6 | 22 | 28 |
| 12. | Velosiped - Trek | 12 | 15 | 27 |
| 13. | Triatlon - Hamısı | 0 | 26 | 26 |
| 14. | Atletika - Tullanmalar | 14 | 7 | 21 |
| 15. | Atletika - Sprint 400 m və ya daha az | 6 | 15 | 21 |
| 16. | Su idmanı - Üzmə orta məsafəsi 200-400m | 3<br>6 | 18 | 21 |
| 17. | Gimnastika - İdman Gimnastikası | 6 | 14 | 20 |
| 18. | Gimnastika - Bədii | | 14 | 20 |

| No | İdman | YM | YKM | Ümumi |
|---|---|---|---|---|
| 19. | Atletika - Orta məsafə 800-1500 m | 6 | 13 | 19 |
| 20. | Atletika - Uzun məsafə 3000 m və daha çox | 4<br>6 | 14 | 18 |
| 21. | Qılıncoynatma | 9 | 12 | 18 |
| 22. | Atletika - Atışlar | 0 | 5 | 14 |
| 23. | Stolüstü Tennis - Stolüstü Tennis | 3 | 14 | 14 |
| 24. | Avarçəkmə - Avarçəkmə | 4 | 10 | 13 |
| 25. | Su idmanı - Üzmə Uzun məsafə 800 m və daha çox | 0 | 6 | 10 |
| 26. | Tennis - Tennis | 3 | 10 | 10 |
| 27. | Kanoye / Kayak - Sprint 200m | 0 | 6 | 9 |
| 28. | Cüdo - Para - Cüdo | 8 | 8 | 8 |
| 29. | Basketbol - Basketbol | 4 | 0 | 8 |
| 30. | Atıcılıq | 0 | 3 | 7 |
| 31. | Badminton | 0 | 6 | 6 |
| 32. | Gimnastika - Akrobatik | 0 | 5 | 5 |
| 33. | Gimnastika - Tamblinq | | 5 | 5 |
| | **Ümumi** | **659** | **935** | **1594** |

**YM - Yarış müddətində , YKM - Yarışdan kənar müddətdə*

## Milli Tədbirlər

| No | İdman | Azərbaycanda keçirilən beynəlxalq tədbirlər | Başlama tarixi | Bitmə tarixi |
|---|---|---|---|---|
| 1. | Atletika | U-18 Atletika üzrə Azərbaycan Çempionatı | 04.01.2019 | 06.01.2019 |
| 2. | Ağır atletika | Azərbaycan Ağır Atletika Çempionatı | 07.02.2019 | 08.02.2019 |
| 3. | Atletika | Yeniyetmələr arasında Atletika üzrə Respublika Çempionatı | 08.02.2019 | 09.02.2019 |
| 4. | Güləş | Yeniyetmə və gənclər arasında Güləş üzrə Respublika Çempionatı | 19.02.2019 | 23.02.2019 |
| 5. | Üzgüçülük | Üzgüçülük üzrə Qış Çempionatı | 22.02.2019 | 24.02.2019 |
| 6. | Cüdo | Cüdo üzrə Azərbaycan Çempionatı | 27.02.2019 | 28.02.2019 |
| 7. | Velosiped | Velosiped İdmanı üzrə Azərbaycan Çempionatı | 02.03.2019 | 03.03.2019 |
| 8. | Velosiped | Velosiped İdmanı Federasiyası Kuboku | 16.03.2019 | 17.03.2019 |
| 9. | Kanoye / Kayak | Kanoye və kayak üzrə Prezident Reqatası | 27.03.2019 | 29.03.2019 |
| 10. | Avarçəkmə | Avarçəkmə üzrə Prezident Reqatası | 27.03.2019 | 29.03.2019 |
| 11. | Həndbol | Həndbol üzrə Azərbaycan Kuboku | 29.03.2019 | 30.03.2019 |
| 12. | Velosiped | Olimpiya kateqoriyaları üzrə Azərbaycan Çempionatı | 28.06.2019 | 30.06.2019 |
| 13. | Qılıncoynatma | Qılıncoynatma üzrə Azərbaycan Çempionatı | 29.06.2019 | 30.06.2019 |
| 14. | Futbol | Futbol üzrə Azərbaycan Çempionatı | 07.07.2019 | 07.07.2019 |
| 15. | Ağır atletika | U-17 Azərbaycan Birinciliyi | 27.07.2019 | 28.07.2019 |
| 16. | Basketbol | Basketbol üzrə Azərbaycan Çempionatı | 10.10.2019 | 13.10.2019 |
| 17. | Gimnastika | Gimnastika üzrə Azərbaycan Kuboku | 11.10.2019 | 13.10.2019 |
| 18. | Ağır atletika | Ağır Atletika üzrə Azərbaycan Kuboku | 09.11.2019 | 10.11.2019 |
| 19. | Karate | Karate üzrə Azərbaycan Çempionatı | 22.11.2019 | 24.11.2019 |
| 20. | Boks | Boks üzrə Azərbaycan Çempionatı | 25.11.2019 | 27.11.2019 |
| 21. | Güləş | Azərbaycan Çempionatı | 05.12.2019 | 06.12.2019 |
| 22. | Cüdo | U-21 Cüdo üzrə Azərbaycan Birinciliyi | 24.12.2019 | 25.12.2019 |
| 23. | Taekvondo | Taekvondo üzrə Azərbaycan Çempionatı | 26.12.2019 | 28.12.2019 |

# Beynəlxalq Test Sifarişləri

AMADA idman təşkilatları, Milli Antidopinq Təşkilatları (MADT), Beynəlxalq Test Agentliyi (BTA), Beynəlxalq Federasiyalar, yerli və beynəlxalq tədbir təşkilatçıları üçün xüsusiləşdirilmiş, hərtərəfli test xidmətlərini göstərir.

| No | İdman | YM | YKM | Ümumi |
|---|---|---|---|---|
| 1. | Üzgüçülük | 1 | 0 | 1 |
| 2. | Boks | 2 | 0 | 2 |
| 3. | Gimnastika | 7 | 78 | 85 |
| 4. | Para-Cüdo | 13 | 0 | 13 |
| 5. | Cüdo | 7 | 8 | 15 |
| 6. | Karate | 7 | 0 | 7 |
| 7. | Taekvondo | 8 | 0 | 8 |
| 8. | Ağırlıq qaldırma | 6 | 0 | 6 |
| 9. | Güləş | 16 | 0 | 16 |
| 10. | Kikboksinq | 1 | 0 | 1 |
| 11. | Avarçəkmə | 8 | 0 | 8 |
| 12. | AGOF | 0 | 177 | 177 |
| | **Ümumi** | **76** | **263** | **339** |

**YM - Yarış müddətində , YKM - Yarışdan kənar müddətdə*

## Beynəlxalq Tədbirlər

| No | İdman | Azərbaycanda keçirilən beynəlxalq tədbirlər | Başlama tarixi | Bitmə tarixi |
|---|---|---|---|---|
| 1. | Gimnastika | Batut və Tamblinq üzrə Dünya Kuboku | 17.02.2019 | 17.02.2019 |
| 2. | Gimnastika | Bədii Gimnastika üzrə Dünya Kuboku | 20.04.2019 | 27.04.2019 |
| 3. | Cüdo | Cüdo üzrə Bakı Böyük Dəbilqə Turniri | 10.05.2019 | 10.05.2019 |
| 4. | Gimnastika | Bədii Gimnastika üzrə Dünya Çempionatı | 15.09.2019 | 15.09.2019 |


Test Bölüşdürmə Planı
Gimnastika - Tambling
Badminton
Basketbol - Basketbol
Kanoye / Kayak - Sprint 200m
Su idmanı - Üzmə Uzun məsafə 800 m və d.ç.
Stolüstü Tennis - Stolüstü Tennis
Qılıncoynatma
Atletika - Orta məsafə 800-1500 m
Gimnastika - Bədii
Atletika - Sprint 400 m və ya daha az
Triatlon - Hamısı
Velosiped - Trek
Həndbol - Qapalı
5
6
8
9
10
14
18
19
20
21
26
27
38
86
119
133
161
235
164
162
120

# Test Bölüşdürmə Planı

AMADA risk qiymətləndirilməsi və prioritetlərin müəyyənləşdirilməsi əsasında Test Bölüşdürmə Planını (TBP) yaratmaqla testlərin səmərəli, təhqiqatlara əsaslanan və müntənasib paylaşdırılmasını planlaşdırır və həyata keçirir.



## Qeydiyyata alınmış Test Qrupu

AMADA effektiv dopinq nəzarətinin həyata keçirilməsi məqsədi ilə Qeydiyyata alınmış Test Qrupu (QTQ) və Milli Test Qrupunu (MTQ) təşkil edir.

QTQ-yə daxil edilmiş idmançılardan məkan məlumatının təqdim edilməsi tələb olunur və onların həm yarış müddətində, həm də yarışdan kənar müddətdə dopinq nəzarəti testindən ildə ən azı üç dəfə keçirilməsi nəzərdə tutulur.

İdmançının QTQ-yə daxil edilməsi fiziki göstəricilər, dopinq nəzarəti analizlərinin statistikası, zədələr, gözlənilən yarışdan imtina və ya iştirak etməmə, idmanı tərk edəndən sonra yenidən idmana qayıdış, idman nəticələrinin qəflətən yaxşılaşması, dopinq istifadəsini nümayiş edən davranış, uzaq məkana köçmək, idmançının diskvalifikasiya dövründən sonra bərpası, üçüncü tərəfdən məlumat, diskvalifikasiya və ya şərti kənarlaşdırma müddətləri və s. kimi bir çox amillər əsasında həyata keçirilir.

## İdmançının Bioloji Pasportu

İdmançının Bioloji Pasportu (İBP) dopinqin bədənə təsirini dolayısı yol ilə aşkarlaya bilən seçilmiş bioloji parametrlərin müəyyən müddət ərzində monitorinqidir.

Hər bir idmançı üçün pasport ayrılıqda sidik və qan testlərinin nəticələrini, qan nümunələri əsasında analiz edilmiş hematoloji parametrlərin cəmləşdirilmiş nəticələrindən ibarət hematoloji profil və sidik nümunələri əsasında steroid səviyyələrinin cəmləşdirilmiş nəticələrindən ibarət olan uzunmüddətli steroid profilini daxil edir.

AMADA davamlı olaraq sözügedən parametrləri izləyir və bu yanaşma AMADA-ya hər bir idmançı üçün fərdi, uzunmüddətli profillər yaratmağa, habelə idman göstəricilərini artıran maddə və ya üsulların istifadəsinə işarə edən hər hansı kəskin dəyişiklikləri izləməyə imkan verir.

## Saxlama və yenidən test keçirmə strategiyası

AMADA Ümumdünya Antidopinq Məcəlləsi və AMADA Antidopinq Qaydalarına uyğun olaraq təmiz idmançıların qorunması üçün alətlərdən biri kimi saxlama və yenidən test keçirmə strategiyasını hazırlamışdır.

Nümunələr İBP məlumatı, təhqiqat məlumatı, laboratoriya tövsiyələri və ya digər informasiya mənbəsindən əldə edilən məlumata uyğun olaraq AMADA tərəfindən həyata keçirilən risk qiymətləndirilməsi əsasında yenidən test keçirilməsi üçün saxlanıla bilər.

## Terapevtik İstifadə üçün İstisna (Tİİ)

AMADA kliniki və idman təbabəti sahələrində müstəqil ekspertlərdən ibarət Terapevtik İstifadəyə İcazə Komitəsinə inzibati dəstək göstərir.

Tİİ rəsmi qeydə alınmış xəstəliklərin və sağlamlıqla bağlı problemlərin müalicəsi üçün qadağan edilmiş maddə və ya üsuldan istifadə üçün xüsusi icazədir.

İdmançıların müəyyən dərman tələb edən xəstəlikləri və ya sağlmalıqla problemləri ola bilər. Dərman və ya üsul Qadağan edilmiş Siyahıda olarsa, idmançı müəlicəni başlamazdan əvvəl Tİİ üçün müraciət etməlidir. Tİİ ərizəsi TİİK tərəfindən nəzərdən keçiriləndən sonra idmançıya müalicə almağa icazə verilə bilər.

## Nümunə Toplanması Heyəti

AMADA-nın Dopinq Nəzarəti İnspektorları (DNİ) AMADA-nın Test Siyasəti və Prosedurlarına və ÜADA-nın Test keçirmə və Təhqiqatlar üzrə Beynəlxalq Standartına uyğun olaraq təlimdən keçir.

AMADA DNİ-lərin öz vəzifələrini icra etmək üçün müvafiq təlim proseduru yaratmışdır. Bütün uyğunluq meyarlarına cavab verən DNİ-lər imtahan və akkreditasiyadan əvvəl 3 səviyyəli təlim prosesindən keçirlər.

AMADA-nın Qan Nəzarəti İnspektorları (QNİ-lər) əsasən ali tibb təhsili və venadan qan almaq üçün təcrübədən ibarət müvafiq ixtisaslara malikdirlər.

AMADA-nın 18 DNİ, 6 DNİ/QNİ və 12 Dopinq Nəzarəti Müşaiyətçisi (DNM) var. AMADA-nın DNİ əməkdaşlarının hamısı Azərbaycan, ingilis, rus, türk, bəziləri isə əlavə olaraq ispan, polyak və alman dillərini bilir.




## Qeydiyyata alınmış Test Qrupu







## İdmançının Bioloji Pasportu

# Əsas Tədbir

## Avropa Gənclər Olimpiya Festivalı

Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında keçirilir və 25 illik qürurverici bir ənənəyə sahibdir. AGOF 14-18 yaşlı gənc idmançıları əhatə edən ilk böyük çox növlü idman tədbirdir. Yay və qış növlərindən ibarət festival tək rəqəmli illərdə olmaqla iki ildən bir keçirilir. AGOF Avropa Olimpiya Komitəsi tərəfindən təşkil olunur.

Tədbir Olimpiya bayrağı altında keçirilir və Olimpiya ənənələri ilə zəngindir: yanan alovdan idmançı və rəsmilərin andınadək. Məhz AGOF-da Avropanın yeni nəsil idman ulduzları beynəlxalq arenada öz ilk addımlarını atırlar. Bu onlar üçün yeni dostluqlar və əvəzsiz təcrübə imkanı yaradır.

Yay festivalında təxmini 3600, qış festivalında isə 1600 nəfər gənc idmançı və rəsmilərdən ibarət heyət iştirak edir.

AGOF Avropa gəncliyini simvolik olaraq Atletlər Kəndində birləşdirir. Bu bir çox idmançıya medal qazanmaq üçün Olimpiya Oyunlarına aparan bir qapıdır və ən güclü gənc idmançılara Olimpiya tədbirinin nə olduğunu ilk olaraq hiss etdirir, eyni zamanda isə daha çox gənci idmanla məşğul olmağa və sağlam həyat tərzi sürməyə həvəsləndirir.

Avropa Gənclər Olimpiya Festivalı (AGOF) 21-27 iyul 2019-cu il tarixlərində Bakıda keçirilmişdir. AMADA AGOF Oyunları üçün Nümunə Toplanması Agentliyi kimi çıxış etmişdir.

AMADA-nın yüzə yaxın dopinq nəzarət inspektorları, müşaiyətçiləri və könüllüləri AGOF-a cəlb edilmişdir. Dopinq nəzarəti 100% kağızsız şəkildə, kağızsız dopinq nəzarəti üçün MODOC platformasında icra edilmişdir.

Əlavə olaraq festival çərçivəsində AMADA Avropa Olimpiya Komitəsi adından bir sıra təhsil və təşviq tədbirlərini həyata keçirmişdir.

AGOF kimi tədbirlərin bütün Avropadan olan gənc nəsillər arasında əlaqələrin möhkəmləndirdiyini və Avropa idmanın gələcəyinin dürüstlük və bərabər hüquqlar ruhunda formalaşdırılmasına töhfə vermək imkanını təmin etdiyini nəzərə alaraq AGOF-a töhfə vermək AMADA üçün bir şərəf idi.

## Kağızsız Dopinq Nəzarəti

AMADA 2018-ci ildən etibarən kağızsız dopinq nəzarətinə keçmişdir və bu məqsəd üçün MODOC platformasından istifadə edir. Bu müasir şifrələmə və məlumatların ötürülmə və saxlanması üçün müdafiə parametrlərinə malik, yarış müddətində və yarışdan kənar müddətdə dopinq nəzarətinin planlaşdırılması, icrası və sənədləşdirilməsi üçün rəqəmsal və tam inteqrasiya edilmiş sistemdir.

*Mən gənc idmançıyam.*

Mən
**cəsur, güclü
və istedadlıyam.**




**Mən
idmanımı
sevirəm**




Qələbə
gözəl hissdir,

**onun
qiymətləndirilməsi
isə daha gözəldir**










**Fəxr edirəm ki,
öz uğurlarımla səni
qürurlandırıram!**









**Mən
ölkəmi
sevirəm.**



5

# Təhsil və Maarifləndirmə

**1100** ÜADA Quiz-ləri

**181** Qiymətləndirmə

**81%** Qavrama nəticəsi



2420 Ümumi

30 Seminarlar

92 QTQ Təlimləri

12 DNİ Təlimləri

24 Cəlb edilmiş idman növü

1 ƏTT

# TƏHSİL VƏ MAARİFLƏNDİRMƏ

## Təhsil

AMADA Azərbaycanın idman ictimaiyyətini, o cümlədən peşəkar və həvəskar idmançıları, Qeydiyyata alınmış Test Qrupundakı idmançıları, məşqçiləri, idmançıya dəstək heyətini, həkimləri və universitet tələbələrini əhatə edən müxtəlif növ təhsil proqramlarına malikdir. AMADA-nın təhsil heyətinin mütəxəssisləri məşq sessiyaları, təlim zamanı idmançı və onların dəstək heyətləri üçün idman növləri və yaş qruplarına uyğunlaşdırılmış seminarlar keçirirlər. AMADA təhsili antidopinq proqramının təməllərindən biri hesab edir və idmançıların antidopinqlə bağlı maarifləndirilməsi strateji əhəmiyyət daşıyır. AMADA-nın təhsil strategiyası maraqlı tərəflərin, xüsusilə idmançıların prosesə cəlb olunmasının artırılması və innovativ üsulların istifadəsi ilə fərqlənir.

Seminarlar, çap materialları, orta məktəb şagirdləri və ali təhsil tələbələri üçün antidopinq proqramlarının çatdırılması kimi ənənəvi təhsil tədbirlərindən savayı AMADA, həmçinin antidopinq mesajının çatdırılması üçün yeni və innovativ üsullardan istifadəyə üstünlük verir.

### Antidopinq Təhsil Proqramının Əsas Nəticələri

- Çevik və çağırışlara həssas antidopinq təhsil proqramının icrası;
- Təmiz idmanda AMADA-nın ictimaiyyət və tərəfdaşların etimadınının möhkəmlənməsində effektiv ünsiyyət qurma rolu;
- Qabaqcıl təcrübə alətləri və dəstək xidmətlərinin yaradılması vasitəsilə Azərbaycan idmanı üçün təhsil fəaliyyəti nəticəsində dopinq istifadəsinin qarşısının alınması;
- Azərbaycanda antidopinq elmi və tədqiqatının prioritetləşdirilməsinə təsir göstərmək və antidopinq sahəsində elmi tədqiqatlardan antidopinq fəaliyyətinin effektivliyinin artırılması məqsədilə istifadə edilməsi.

### Dəyərlərə əsaslanan təhsil: Yeni nəsil və yeni yollar

> *"Bir ökənin bu günü və gələcəyi biləvasitə təhsillə bağlıdır."*
>
> *İlham Əliyev*

"Antidopinq mədəniyyəti"-nin formalaşması məktəbdən başlayır. Hər uşaq fərqli olsa da hamısının oxşar cəhətləri var: öyrənmək, bölüşmək, yaratmaq və təcrübə qazanmaq ehtiyacı və bu dünyanı daha yaxşı bir yerə çevirmək.

AMADA-nın məktəbdə uşaqlara təhsil verməkdə məqsədləri:

- ✓ Etikanı həmişə üstün tut.
- ✓ Şəffaf ol, dürüst ol və daha yaxşı bir dünya qur!

# Məlumatlılığın artırılması

AMADA-nın Təşviqat Proqramı milli və beynəlxalq səviyyəli idman tədbirlərində həyata keçirilir. AMADA heyəti tədbir zamanı idmançı və onların dəstək heyətləri ilə qarşılıqlı əlaqə qurub onları cəlb etmək üçün Təşviqat Proqramını ən uyğun və yaxşı görünən yerdə düzəldərək təqdim edir. Heyət məlumatlandırıcı və cəlbedici şəkildə dopinqin zərəri və nəticələri barədə müzakirə keçirir və iştirakçılara interaktiv şəkildə antidopinq üzrə biliklərini sınamağa imkan yaradaraq onları "Təmiz Qal" şüarına dəstək olmağa çağırır.

# Ali Təhsil İctimaiyyəti

## Azərbaycan Dövlət Bədən Tərbiyə və İdman Akademiyası ilə Tərəfdaşlıq

AMADA idman təbabəti və reabilitasiya üzrə magistr dərəcəli tələbələrini dərman vasitələrinin təmiz idmana dair öhdəlikləri barədə məlumatlandırmaq məqsədilə Azərbaycan Dövlət Fiziki Tərbiyə və İdman Akademiyası (ADFTİA) ilə əməkdaşlığa başlamışdır. Bu antidopinq kursu aşağıdakı məsələlərin vurğulanması ilə idmançılarla ünsiyyətdə olacaq tələbələr, o cümlədən digər tibbi peşəkarlar üçün tərtib edilmişdir:

- Qadağan edilmiş Siyahı;
- Terapevtik İstifadə üçün İstisnalar və onların müraciət formaları;
- Qida əlavələri və onların istifadəsilə bağlı yarana biləcək təhlükələr;
- Nümunə Toplanması Prosesi. İdmançıların və tibbi heyətin hüquq və öhdəlikləri.

Qeyd olunmalıdır ki, kurs dopinqin sağlamlıq və etik normalar barədə məlumatlılıq, o cümlədən idmançılara təmiz idmana olan fikirlərini formalaşdırmağa kömək məqsədilə məlumatlılıq kimi dopinqlə mübarizənin digər əhəmiyyətli sahələrinə də toxunur. Kurs idmançıya dəstək heyətini idmançılara məlumatların düzgün və qərarların etik normalar çərçivəsində qəbul etməyə kömək etmək üçün effektiv alətlərlə təmin edir.

# Əsas tədbirlər

## Təmiz idman günü (Ədalətli İdman Günü)

PLAY TRUE DAY

"Təmiz idman günü" təmiz idmana həsr olunmuş və idmançılar, idman ictimaiyyəti və digərləri arasında dopinqə qarşı qlobal mübarizə haqqında məlumatlandırma məqsədi daşıyır. Təmiz idman günü, təmiz idman və təmiz idmançıları dəstəkləmək məqsədilə Azərbaycanda 10 aprel 2019-cu ildə qeyd edilmişdir.

AMADA tərəfindən çəkilmiş videoçarx bütün idmançıları oyun qaydalarına hörmət etməyə, ədalətli yarışmağa və təmiz qalmağa çağırır. Milli Velosiped Federasiyası ilə birgə təşkil edilmiş Təmiz idman gününə həsr olunmuş digər tədbirdə idmançılar və həmçinin milli komandanın üzvləri olan fiziki imkanları məhdud idmançılar da təmiz idmana və ədalətli yarışmaya olan dəstəklərini nümayiş etmək məqsədilə birləşdilər.

## Beynəlxalq uşaqlar günü



Dəyərlər idman davranışına böyük təsir göstərir. Uşaqların idmanla bağlı olan dəyərləri onların perspektivlərinə, idman və şəxsi həyatlarına təsir edir.

AMADA hər il "Beynəlxalq uşaqlar günü"-nü qeyd edir, uşaqların rifahı barədə məlumatlılığı artırır və dəstək tədbirləri keçirir.

1 iyun 2019-cu il tarixdə "Beynəlxalq uşaqlar günü"-ndən gənc idmançılar kampaniyaya qoşuldular:

- ✓ Bu, mənim idmanımdır.
- ✓ Mən buna dəyər verir və dəstəkləyirəm.



PLAY TRUE DAY

STAY CLEAN














**Beynəlxalq Uşaqlar Günü** 2019

















Mən
**DÜRÜST**
rəqabət aparıram
***ədalət naminə***
***idmanım naminə***
***Azərbaycanım naminə***



# Seminarlar və Vorkşoplar 2019

| No | Tədbirin keçirildiyi yer | Tarix | İştirakçı |
|---|---|---|---|
| 1. | Azərbaycan Velosiped idmanı Federasiyası | 10.04.19 | 70 |
| 2. | Azərbaycan Badminton Federasiyası | 21.05.19 | 21 |
| 3. | Azərbaycan Voleybol Federasiyası | 24.05.19 | 45 |
| 4. | Azərbaycan Atletika Federasiyası | 30.05.19 | 51 |
| 5. | Azərbaycan Ağır Atletika Federasiyası | 04.06.19 | 40 |
| 6. | Azərbaycan Karate Federasiyası (14-17 yaş) | 07.06.19 | 19 |
| 7. | 2-ci Avropa Oyunları üçün MOK-la birgə seminar | 10.06.19 | 30 |
| 8. | Azərbaycan Voleybol Federasiyası | 01.07.19 | 17 |
| 9. | Azərbaycan Cüdo Federasiyası | 10.07.19 | 35 |
| 10. | Azərbaycan Güləş Federasiyası | 11.07.19 | 25 |
| 11. | Azərbaycan Sambo Federasiyası | 12.07.19 | 15 |
| 12. | Azərbaycan Tennis Federasiyası | 16.07.19 | 14 |
| 13. | Paracüdo üzrə Milli Yığma | 11.09.19 | 25 |
| 14. | Para-atletika üzrə Milli Yığma | 12.09.9 | 17 |
| 15. | Para-taekvondo üzrə Milli Yığma | 16.09.19 | 12 |
| 16. | Azərbaycan Atıcılıq Federasiyası | 27.09.19 | 18 |
| 17. | Azərbaycan Basketbol Federasiyası | 16.10.19 | 27 |
| 18. | Azərbaycan Stolüstü Tennis Federasiyası | 17.10.19 | 15 |
| 19. | Azərbaycan Gimnastika Federasiyası | 18.10.19 | 86 |
| 20. | Azərbaycan Qılıncoynatma Federasiyası | 23.10.19 | 20 |
| 21. | Azərbaycan Velosiped idmanı Federasiyası | 20.11.19 | 48 |
| 22. | Azərbaycan Həndbol Federasiyası | 21.11.19 | 27 |
| 23. | Azərbaycan Üzgüçülük Federasiyası | 23.11.19 | 9 |
| 24. | Azərbaycan Taekvondo Federasiyası | 26.11.19 | 9 |
| 25. | Azərbaycan Boks Federasiyası | 05.12.19 | 22 |
| 26. | Azərbaycan Karate Federasiyası | 06.12.19 | 30 |
| 27. | Şirvan şəhərində Seminar | 13.12.19 | 100 |
| 28. | Azərbaycan Triatlon Federasiyası | 14.12.19 | 7 |
| 29. | Sabah Futbol Klubu | 17.12.19 | 28 |
| 30. | U-17 Futbol üzrə Qadınlar komandası | 19.12.19 | 28 |

# Təşviqat

| Tədbirin keçirildiyi yer | Tarix | İştirakçı |
|---|---|---|
| U-21 Yeniyetmələr arasında Cüdo üzrə Azərbaycan Kuboku | 28-29 Fevral 2019 | 100 |
| Baku Open 10-cu Beynəlxalq Karate Turniri 2019 | 14-17 Mart 2019 | 200 |
| Azərbaycan Velosiped idmanı Federasiyası ilə birgə Ədalətli İdman Günü | 10 Aprel 2019 | 100 |
| IBSA Cüdo üzrə Bakı Qran Prisi | 13-14 May 2019 | 150 |
| Yeniyetmə və gənclər arasında 11-ci aerobika gimnastikası üzrə Avropa Çempionatı | 24-26 May 2019 | 150 |
| AMADA ilə təmizlik aksiyası (Bilgəh dəniz sahilində) | 28 May 2019 | 40 |
| Badminton üzrə Azərbaycan Beynəlxalq 2019 | 6-9 İyun 2019 | 120 |
| Avropa Gənclər Olimpiya Festivalı (AGOF) | 21-27 İyul 2019 | 300 |
| 37-ci bədii gimnastika üzrə Dünya Çempionatı | 16-22 Sentyabr 2019 | 200 |
| 5-ci Uşaq Paralimpiya Oyunları | 14 Noyabr 2019 | 150 |

## Fevral

**28-29**
U-21 Yeniyetmələr arasında Cüdo üzrə Azərbaycan Kuboku

## Mart

**14-17**
10-cu Beynəlxalq "Baku Open" karate turniri 2019

## Aprel

**10**
Azərbaycan Velosiped idmanı Federasiyası ilə birgə "Ədalətli İdman Günü"

**10**
Azərbaycan Velosiped idmanı Federasiyası

## May

**13-14**
IBSA Cüdo üzrə Bakı Qran Prisi

**21**
Azərbaycan Badminton Federasiyası

**24**
Azərbaycan Voleybol Federasiyası

**24-26**
Yeniyetmə və gənclər arasında 11-ci aerobika gimnastikası üzrə Avropa Çempionatı

**28**
AMADA ilə təmizlik aksiyası (Bilgəh dəniz sahilinin təmizlənməsi)

**30**
Azərbaycan Atletika Federasiyası

## İyun

**04**
Azərbaycan Ağır Atletika Federasiyası

**07**
Azərbaycan Karate Federasiyası (14-17 yaş)

**06-09**
Badminton üzrə Azərbaycan Beynəlxalq 2019

**10**
2-ci Avropa Oyunları üçün MOK-la birgə seminar

# Təhsil və Maarifləndirmə fəaliyyəti
## xronoloji qrafiki

### İyul
**01** Azərbaycan Voleybol Federasiyası

**10** Azərbaycan Cüdo Federasiyası

**11** Azərbaycan Güləş Federasiyası

**12** Azərbaycan Sambo Federasiyası

**16** Azərbaycan Tennis Federasiyası

**21-27** Avropa Gənclər Olimpiya Festivalı (AGOF)

### Sentyabr
**11** Para Cüo üzrə Yığma Komanda

**12** Para Atletila üzrə Yığma Komanda

**16** Para Taekvondo üzrə Yığma Komanda

**16-22** 37-ci bədii gimnastika üzrə Dünya Çempionatı

**27** Azərbaycan Atıcılıq Federasiyası

### Oktyabr
**16** Azərbaycan Basketbol Federasiyası

**17** Azərbaycan Stolüstü Tennis Federasiyası

**18** Azərbaycan Gimnastika Federasiyası

**23** Azərbaycan Qılıncoynatma Federasiyası

### Noyabr
**14** 5-ci Uşaq Paralimpiya Oyunları

**20** Azərbaycan Velosiped idmanı Federasiyası

**21** Azərbaycan Həndbol Federasiyası

**23** Azərbaycan Üzgüçülük Federasiyası

**26** Azərbaycan Taekvondo Federasiyası

### Dekabr
**05** Azərbaycan Boks Federasiyası

**06** Azərbaycan Karate Federasiyası

**13** Şirvan şəhərində Seminar

**14** Azərbaycan Triatlon Federasiyası

**17** Sabah Futbol Klubu

**19** U-17 Futbol üzrə Qadınlar komandası




# Təhsil tədbirləri






**Biz**
**Dopinqə**
**YOX**
**deyirik!**













































İdman

dopinqdən

**AZAD**

olmalıdır












# ARAŞDIRMA VƏ TƏHQİQATLAR

**Dopinq Məlumatlılığı barədə sorğu**

**700** Ümumi

**60%** Dopinq istifadəsi təklif olunub

**72.8%** Yüksək nəticələri dopinqsiz əldə etməyi mümkün hesab edirlər

**64.8%** Qida əlavələrini dopinq vasitələrindən ayıra bilirlər

## Məlumat Kanalları

- **45%** E-mail
- **30%** Vebsayt vasitəsi ilə anonimlər
- **15%** Şəxsi Müsahibələr
- **10%** İnformatorlar

- **8** Azyaşlılara aid işlər
- **2** Saxtalaşdırılma üzrə işlər



# ARAŞDIRMA VƏ TƏHQİQATLAR

## Araşdırma

AMADA effektiv, ağıllı və müntənasib Test Bölüşdürmə Planının hazırlanması üçün məlumatlandırılması, hədəfli testlərin planlaşdırılması, mümkün antidopinq qayda pozuntularının təhqiqatı üçün əsas formalaşdırmaqla dopinq istifadəsinin aşkarlanmasında istifadə üçün bütün mövcud mənbələrdən əldə olunan antidopinq araşdırma məlumatlarını qiymətləndirir və emal edir.

## Məlumat Kanalları

Araşdırma materiallarının toplanması fəaliyyətilə yanaşı, AMADA ifşaedənlərə, onların bildiyi hər hansı pozuntu barədə məlumat vermək üçün mexanizm təsis etmişdir. Məlumatlandırma mexanizminin, vebsaytın anonim və müdafiə olunmuş bölməsi, antidopinq qayda pozuntularının təhqiqatları zamanı məxfi müsahibələr, o cümlədən telefon və elektron poçt vasitəsilə əlaqə kimi müxtəlif mühafizə olunmuş kanalları mövcuddur. Bu məlumatlandırma mexanizmləri AMADA-ya antidopinqlə bağlı pozuntuları aşkarlamağa kömək edir.

## Təhqiqatlar

AMADA-nın Araşdırma və Təhqiqatlar Şöbəsi təhqiqatların keçirilməsində Ümumdünya Antidopinq Məcəlləsinə və Beynəlxalq Standartlara və müvafiq yerli qanunvericiliyə riayət edir və öz işini ədalətli, obyektiv, bitərəf qaydada və vaxtlı-vaxtında görməklə dürüstlük və etika prinsiplərini rəhbər tutur.

## Təhqiqatlar

AMADA ictimai məlumatlılığı və hüquq mühafizə orqanları ilə əməkdaşlığı gücləndirir, həmçinin ifşaedənləri müdafiə edir və onları idmanda dopinqə qarşı mübarizəyə yardım etməyə həvəsləndirir.

1. Antidopinq qayda pozuntularının daha yaxşı təqib edilməsi məqsədilə təhqiqat üsullarının xüsusi prosedurları və mexanizmlərini icra etmək;
2. Cəmiyyət tərəfindən müvafiq tədbirlərin görülməsi üçün dopinq problemlərinin dinamikasını anlamaq və bununla əlaqədar maarifləndirməni təmin etmək və ictimai məlumatlılığı artırmaq;
3. Dopinqlə mübarizə sahəsində ən qabaqcıl təcrübələrin mübadiləsi üçün hüquq mühafizə orqanları və tənzimləyici qurumlar, habelə digər antidopinq təşkilatlarının səylərini əlaqələndirmək;
4. Qanunsuz dövriyyə məsələlərini işıqlandırmaq və idman, dövlət və hüquq mühafizə orqanları arasında müzakirələri sövq etmək;
5. İfşaedənlərə çətinlikləri qarşılamaq və AMADA-ya yardım göstərmək üçün imkanlar təmin etmək;
6. Məqsədləri üst-üstə düşən milli, ölkədaxili və hökumətlərarası tərəflər ilə əlaqələri və əməkdaşlığı gücləndirmək;
7. İfşaedən proqramını təşviq etmək və onun idmanda dopinqlə mübarizəyə effektiv təsiri barədə məlumatlılığı artırmaq;
8. Araşdırma məlumatlarının mübadilə platformalarını gücləndirmək.

# Qanunsuz Dövriyyə

## Fitnes Mərkəzləri

Dopinq maddələri, əsasən anabolik steroidlər, gənc nəsil tərəfindən geniş istifadə edilir. Belə yayılmanın mənbələri qanunsuz olaraq idman nəticələrinin artırılması üçün dərmanları qanunsuz satan fitnes mərkəzləridir. Bədən quruluşunun tez bir zamanda təkmilləşməsi və əhəmiyyətli əzələ artımı insanları bu cür sui-istifadəyə sövq edir. Lakin anabolik steroidlər sağlamlıq üçün təhlükə təşkil edir və bütün nəslin inkişafına mənfi təsir göstərə bilər.

AMADA həmin fitnes mərkəzlərinə qarşı təhqiqata başlamışdır və bu cür geniş yayılmanın qarşısını almaq və qanunsuz dövriyyə ilə mübarizə məqsədilə hüquq mühafizə orqanları ilə əməkdaşlığa davam edir.

## Kontaminasiyaya uğramış Qida Əlavəsi üzrə iş

İdmançların antidopinq qayda pozuntularının təhqiqatları zamanı, AMADA təmizliyi şübhə yaradan qida əlavəsi istifadəsi halını aşkarlamışdır. Nəticədə, idmançılardan əldə olunmuş qida əlavələrinin istifadə edilmiş və qutusu açılmış nümunələri, o cümlədən eyni əmtəə nişanlı qutusu bağlı və möhürlənmiş qida əlavəsi toplanmış və analiz üçün ÜADA tərəfindən akkreditə edilmiş laboratoriyaya göndərilmişdir. Laboratoriya, həmin qida əlavəsinin tərkibində bir neçə anabolik steriod maddələrini aşkarlamışdır. Həmin maddələr, güclü təsir edən maddələr olduğundan onların qanunsuz dövriyyəsi milli qanunvericiliyə əsasən cinayət tərkibini yaradır.

AMADA dərhal Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Gömrük Komitəsi, o cümlədən bütün respublika idman federasiyaları daxil olmaqla, bütün müvafiq tərəfləri həmin qida əlavəsinin təhlükəsi barədə məlumatlandırmışdır. Nəticədə, qida əlavəsinin idxalı dayandırılmış və idmançılar sözügedən əlavəni istifadə etdikləri halda üzləşəcəkləri sanksiyalar barədə məlumatlandırılmışlar.

## İdman Göstəricilərini Artıran Dərmanlara dair sorğu

Orta gənc Azərbaycanlı dopinqin təhlükəsi barədə məlumatlıdır, ona mənfi münasibət bəsləyir, lakin onun istifadəsi barədə məlumat vermək istəmir. Dopinq istifadəsinə dair vəziyyətin öyrənilməsi üçün AMADA tərəfindən keçirilən sorğunun nəticələri belə deməyə əsas verir. Təsadüfi seçim üsulu ilə keçirilən sorğuda idmançılar və ya idmanla məşğul olan şəxslərə üstünlük verilmişdir.

Sorğu əsasən Z Nəslini (13-18 yaşlıları – respondentlərin 19.6%-ni) və gənc millenialları (19-28 yaşlıları – respondentlərin 52%-ni) əhatə etmişdir. Respondentlərin 48.3%-ni tələbə, 14.5%-ni özlərini peşəkar idmançı, 29.5%-ni isə özünü həvəskar idmançı hesab edən, 21.1%-ni vaxtaşırı fitness klublara gedən və 29.5%-ni isə idmanla məşğul olmayanlar təşkil edib. Respondentlərin ümumi sayı 700 nəfərə yaxın olub.

## Əsas Nəticələrin İcmalı

### İdman zalları dopinq maddələrinin əsas yayılma mənbəsi kimi

Respondentlərin yeddisindən biri etiraf edir ki, ona dopinq maddələri təklif edilib. Onların 60%-ə idman zalında və ya fitnes mərkəzində məşqçilər tərəfindən təklif edilib. Sorğu iştirakçılarının üçdə biri hesab edir ki, onlar dopinqi idman zallarında/fitnes mərkəzlərində ala bilər, digər üçdə biri apteki seçər, qalan üçdə biri isə sosial mediada paylaşılan elanlara müraciət edərdi. Sorğunun nəticələri göstərir ki, steroidlərin zərəri barədə məlumatlılıq qənaətbəxşdir. Belə ki, respondentlərin 45%-i onların nəticələrini düzgün müəyyən edə bilib. Qalanları isə bir neçə kənar təsiri müəyyən edə biliblər.

### Yüksək səviiyyəli idman qidaları/qida əlavələrinin riskləri barədə məlumatlılıq

Respondentlərin əksəriyyəti heç bir idman əlavəsi istifadə etmir və onları dopinq maddələrindən fərqləndirə bilir (64.8%). 6%-i dopinq və əlavələr arasında fərq görmür və 29.2%-i əmin deyil. Ən populyar idman qidaları protein (26.7%), Omega-3 (11%) və BCAA-dır (6.6%).

### Dopinq maddələrinin istifadəsinə qarşı ümumi mənfi münasibət

Respondentlərin əksəriyyəti (72.8%) hesab edir ki, yüksək idman nəticələrinə dopinq istifadə etmədən nail olmaq olar və yalnız 9.7% əksini düşünür. Respondentlərin digərləri (17.5%) dopinq istifadə edənləri fırıldaqçı hesab edir.




Dopinqin istifadəsinin təklif edilmə kanalları




İdmanda yüksək nəticələrə dopinqsiz nail olmaq olar




Yüksək səviyyəli idman qidaları / qida əlavələrinin riskləri barədə məlumatlılıq

# 7 Antidopinq Qayda Pozuntuları

**2** Saxtalaşdırılma üzrə işlər

**15** Məkan Məlumatı pozuntuları

**1** Azərbaycan idmançıları barədə beynəlxalq işlər

**22** AQP

**1** QTQ AQP

**9** İdman növü üzrə

- Güləş
- Ağırlıq qaldırma
- Sambo
- Taekvondo
- Cüdo
- Atletika
- Atıcılıq
- Boks
- Karate

# ANTİDOPİNQ QAYDA POZUNTULARI

## Nəticələrin Emalı Prosesi

Nəticələrin emalı, idmançının mümkün antidopinq qayda pozuntusu barədə bildirişin verilməsindən başlayaraq, iddia və birinci instansiya və ya apellyasiya üzrə dinləmə prosesinin sonu (apellyasiya şikayəti verildikdə) daxil olmaqla, məsələnin tam həlli arasında müddəti əhatə edən prosesdir.

AMADA-nın Nəticələrin emalı prosesi Hüquq şöbəsi tərəfindən həyata keçirilir və ədalət, bitərəflik və vaxtında icra edilmə prinsiplərinə əsaslanır. Antidopinq qayda pozuntusunun həlli mexanizmi hüquq şöbəsi tərəfindən idarə edilən AMADA-nın İşlərin İdarəedilməsi Komissiyası və əməliyyat və təşkilati cəhətdən müstəqil birinci və apellyasiya instansiyaları (İntizam və Apellyasiya Komitələrinin) qurumlarından ibarətdir.

Ümumi qayda olaraq idmançı dinləmə üçün hüququndan imtina edən zaman və ya AMADA-nın İşlərin İdarəedilməsi Komissiyası tərəfindən təklif edilən sanksiyaya razılığını verdiyi zaman AMADA qərarverici qurum hesab edilir. Əks halda, idmançı işi mübahisələndirirsə, bu zaman dinləmə və qərar verilməsi üçün iş İntizam Komitəsinə ötürülür (Apellyasiya Komitəsinə apellyasiya şikayəti vermək hüququ saxlanılmaqla). Beynəlxalq səviyyəli idmançıların işləri barədə qərarın qəbul edilməsi üçün İsveçrənin Lozanna şəhərində yerləşən İdman Arbitraj Məhkəməsinə (İAM) apellyasiya şikayəti verilə bilər.

## İşlərin İdarəedilməsi Komissiyası

İşlərin İdarəedilməsi Komissiyası mümkün antidopinq qayda pozuntusuna dair zəruri qərarların qəbul edilməsi üçün təsis edilmişdir. İşlərin İdarəedilməsi Komissiyası tətbiq edilən AMADA Antidopinq Qaydalarına uyğun olaraq mümkün antidopinq pozuntuları ilə əlaqədar görülməli müvafiq tədbirləri müəyyən etmək səlahiyyətinə malikdir.

İşlərin İdarəedilməsi Komissiyası Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Qanununa, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, AMADA-nın Nizamnaməsi, tətbiq edilən Ümumdünya Antidopinq Məcəlləsi və AMADA Antidopinq Qaydaları, Əsasnaməsi və digər tətbiq edilən normativ-hüquq aktlarına uyğun fəaliyyət göstərir.







İllər üzrə AQP




Son 3 ildə maddələr üzrə AQP

**Maddələr sinfi**

S1 - Anabolik vasitələr
S2 - Peptid hormonları, böyümə faktorları, onlara oxşar maddələr və Mimetiklər
S3 - Beta-2 Aqonistlər
S4 - Hormonlar və Metabolik modulyatorlar
S5 - Diuretiklər və gizlədici agentlər
S6 - Stimulyantlar
S7 - Narkotiklər
S8 - Kannabinoidlər
S9 - Qlükokortikoidlər




Son 3 ildə idman növləri üzrə AQP

# 2019-cu il üzrə AQP

(01.08.2020 tarixinədək)

| No | Sport | Test müddəti | Gender | Pozuntu | Maddə | Sanksiya |
|---|---|---|---|---|---|---|
| 1. | Ağır Atlektika | YM | Kişi | 2.1 | Clenbuterole | 4 il |
| 2. | Ağır Atlektika | YM | Kişi | 2.1 | Oxandrolone and Testosterone | 12 il |
| | | YM | | 2.1 | Oxymetholone | |
| 3. | Atletika | YM | Qadın | 2.3, 2.5 | Yoxdur | Bağlanıldı |
| 4. | Ağır Atlektika | YM | Kişi | 2.1 | 5aAdiol and 5bAdiol | 4 il |
| 5. | Cüdo | YM | Qadın | 2.1 | Furosemide | 2 il |
| 6. | Güləş | YKM | Kişi | 2.1 | Metenolone | 4 il |
| 7. | Atıcılıq | YM | Qadın | 2.1 | Amfetamine | 2 il |
| 8. | Sambo | YM | Kişi | 2.1 | Furosemide | 2 il |
| 9. | Ağır Atlektika | YKM | Qadın | 2.1 | 5aAdiol and 5bAdiol | Qüvvədədir |
| 10. | Karate | YKM | Qadın | 2.1 | Furosemide | Qüvvədədir |
| 11. | Boks | YM | Kişi | 2.3 | Yoxdur | Qüvvədədir |
| 12. | Boks | YM | Kişi | 2.1 | Methylhexaneamine | 2 il |
| 13. | Güləş | YKM | Kişi | 2.3 | Yoxdur | Qüvvədədir |
| 14. | Karate | YM | Kişi | 2.1 | Betamethasone | Qüvvədədir |
| 15. | Boks | YM | Kişi | 2.1 | Methasterone | Qüvvədədir |
| 16. | Boks | YM | Kişi | 2.1 | 19-Norandrosterone | Qüvvədədir |
| 17. | Güləş | YM | Kişi | 2.1 | Amfetamine | Qüvvədədir |
| 18. | Cüdo | YM | Qadın | 2.1 | Furosemide | 1 il |
| 19. | Taekvondo | YM | Qadın | 2.1 | Furosemide | Qüvvədədir |
| 20. | Taekvondo | YM | Qadın | 2.1 | Furosemide | Qüvvədədir |
| 21. | Taekvondo | YM | Kişi | 2.1 | Carboxy-THC | 2 il |

** YM - Yarış müddətində, YKM - Yarış müddətindən kənar*
*2.1 - İdmançıdan alınmış Nümunədə Qadağan edilmiş Maddə və ya onun Metabolit yaxud Markerlərinin mövcudluğu*
*2.3 - Nümunə Toplanması prosedurlarından Yayınma, İmtina yaxud Nümunəni təqdim etməmək*
*2.5 - Dopinq Nəzarətinin hər hansı bir hissəsinin Saxtalaşdırılması və ya Saxtalaşdırılma Cəhdi*

**Əsas Göstəricilər**

**- 18.5%** AQP

**+ 3** İdman növü

**+ 4** Maddə

**+ 1** Maddə kateqoriyası

**+ 1** Pozuntu növü



*"Ədalətin təməli təmiz niyyətdir"*

# Hüqüqi Yardım

İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyada ittiham edilən və mümkün sanksiya ilə üzləşən şəxsə öz müdafiə xərclərini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman müvafiq hüquqi yardımın göstərilməsi haqqında müddəa mövcuddur. Antidopinq icraatının məqsədi cəzalandırmaq deyil, ədalətin bərqarar olunması və təmiz idman prinsiplərinin müdafiə olunmasıdır.

Antidopinq sisteminin tələbləri ilə idmançıların müdafiə edilməsi zərurətinin tarazlaşdırılmasının yollarından biri idmançılara müvafiq hüquqi yardımla təmin edilməsidir. Bu məqsədlə, AMADA öz təşəbbüsü ilə ölkənin aparıcı hüquq şirkətləri ilə əməkdaşlığa başlamışdır.

Nəticədə, AMADA və "BM Morrison Partners" şirkəti arasında işləri dinləmə komitələri qarşısında qaldırılan idmançılar üçün pulsuz hüquqi yardımın təmin edilməsinə dair anlaşma memorandumu imzalanmışdır. Memoranduma hüquqi yardıma ehtiyacı olan idmançılara il ərzində müəyyən sayda pulsuz hüquq xidmətlərinin göstərilməsinə dair müddəa daxil edilmişdir.

# 8 ƏMƏKDAŞLIQ VƏ TƏRƏFDAŞLIQ

## Yerli Əməkdaşlıq

- Gənclər və İdman Nazirliyi
- Hüquq Mühafizə Orqanları
- Milli Olimpiya Komitəsi
- Milli Federasiyalar

4 Memorandum

1 Memorandum

## İdmançılarla Əməkdaşlıq

İdmançı Məsləhətçi Komissiyası 12 üzv

Sosial tədbirlər 7

## Beynəlxalq əlaqələr

- ÜADA
- YUNESKO
- Avropa Şurası
- Beynəlxalq Test Agentliyi
- iNADO
- MADT
- Beynəlxalq Federasiyalar
- PWC
- Berlinger Special

# ƏMƏKDAŞLIQ VƏ TƏRƏFDAŞLIQ

## Ölkədaxili əlaqələndirmə

### Gənclər və İdman Nazirliyi

AMADA Azərbaycan antidopinq ictimaiyyətinin əsas tərəflərindən biri və ölkədə bütün idman fəaliyyətini idarə edən qurum olan Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq edir.

### Hüquq Mühafizə Orqanları

Dopinq maddələri, xüsusilə anabolik steroidlər əksər hallarda qanunsuz idxal edilir və qara bazarda satılır. Bununla əlaqədar olaraq belə qanunsuz fəaliyyətin qarşısının alınması üçün səyləri birləşdirmək məqsədilə AMADA hüquq mühafizə orqanları ilə tərəfdaşlıq edir və müvafiq Anlaşma Memorandumları imzalamışdır. Bu qurumlar Daxili İşlər Nazirliyi, İNTERPOL-un Milli Mərkəzi Bürosu, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsidir.

### Milli Olimpiya və Paralimpiya Komitələri

Milli Olimpiya və Paralimpiya Komitələri ilə bərabər tərəfdaşlıq ruhunda əməkdaşlıq idmanda dopinqlə mübarizə üçün zəruridir. Antidopinq sistemi və ölkədaxili əməkdaşlığın yüksək səviyyədə saxlanması Azərbaycanın əhəmiyyətli beynəlxalq tədbirlərdə, xüsusilə Olimpiya və Paralimpiya Oyunlarında təmiz idmançılarla təmsil olunmasına gətirib çıxarır.

### Milli Federasiyalar

Respublika idman federasiyaları öz yurisdiksiyaları çərçivələrində hər bir idman növünü idarə edən təşkilatlardır. Dopinqlə müştərək mübarizə aparmaq, o cümlədən təmiz idmanı təşviq etmək və idmançıları və onların köməkçi heyətlərini məlumatlandırmaq məqsədilə, AMADA bütün milli federasiyalarla əməkdaşlıq edir və onların Məcəllə və Beynəlxalq Standartlara riayətini monitorinq edir.

## Beynəlxlaq Münasibətlər

AMADA təmiz idmanın təşviqi məqsədilə beynəlxalq arenada fəal iştirak edir. Milli antidopinq təşkilatı kimi, AMADA hər zaman milli səviyyədə fəaliyyətini təkmilləşdirmək və beynəlxalq səviyyədə dopinqlə mübarizəyə töhfə vermək əzmindədir. AMADA inanır ki, qarşılıqlı faydalı əməkdaşlıq həm ölkə daxilində, həm də qlobal arenada faydalıdır.

**AMADA-nın beynəlxalq əməkdaşlığı:**

| | | |
|---|---|---|
| ÜADA | YUNESKO | Avropa Şurası |
| Beynəlxalq Test Agentliyi | iNADO | **Milli Antidopinq Təşkilatları** |
| **Beynəlxalq Federasiyalar** | PWC | Berlinger Special |

## ÜADA

Ümumdünya Antidopinq Agentliyi (ÜADA) idman hərəkatı və dövlətlər tərəfindən təsis edilmiş və maliyyələşdirilən beynəlxalq müstəqil qurumdur. Əsas fəaliyyət istiqamətlərini elmi tədqiqat, təhsil, antidopinq fəaliyyətinin inkişafı və bütün idman növləri və bütün ölkələrdə antidopinq siyasətlərini birləşdirən sənəd olan Ümumdünya Antidopinq Məcəlləsinin monitorinqini təşkil edir. AMADA, öz gündəlik fəaliyyətində ÜADA ilə sıx əməkdaşlıq edir və ÜADA-nın tədbirlərində və xüsusi işçi qruplarında iştirak edir. Bu AMADA-ya ölkənin Məcəllə və Beynəlxalq Standartlara riayət statusunu dəstəkləməyə və eyni zamanda, qlobal səviyyədə dopinqlə mübarizəyə töhfə verməyə kömək edir.

## YUNESKO

Azərbaycan 23 iyul 2007-ci il tarixində YUNESKO-nun İdmanda Dopinqə qarşı Beynəlxalq Konvensiyasına tərəf olmuşdur. Konvensiyanın məqsədi beynəlxalq hüququn dopinqlə mübarizəyə tətbiq edilməsinə yönəlmişdir. Konvensiya Ümumdünya Antidopinq Məcəlləsini tanıyır, onun effektiv tətbiq edilməsini təmin edir, həmçinin dövlətlərin qlobal şəkildə dopinq probleminin həlli üçün istifadə edə biləcəkləri hüquqi çərçivəni təmin edir.

YUNESKO-nun uyğunluq monitorinqi qaydalarına əsasən Azərbaycan Respublikası AMADA, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi və Milli Olimpiya Komitəsindən ibarət Milli Uyğunluq Platformasını yaratmışdır. AMADA ölkənin uyğunluğunun əlaqələndirilməsi üzrə Milli Əlaqələndirici təyin edilmişdir.

## Avropa Şurası

Avropa Şurasının Antidopinq Konvensiyası 1 mart 1990-cı ildə qüvvəyə minmişdir. Konvensiya antidopinq qanunvericiliyinin əlaqələndirilməsi məqsədilə məcburi qaydaları müəyyən edir. Azərbaycan Konvensiya və onun Əlavə Protokolunu müvafiq olaraq 4 noyabr 2003-cü ildə və 11 fevral 2004-cü ildə ratifikasiya etmiş və bu sənədlər 2004-cü ildə qüvvəyə minmişdir.

AMADA Avropa Şurasının Monitorinq Qrupu (T-DO) və Ümumdünya Antidopinq Agentliyi üzrə Avropa Şurasının Xüsusi Avropa Komitəsinin (CAHAMA) iclas və fəaliyyətlərində, o cümlədən müxtəlif işçi qruplarında iştirak edərək onlarla sıx tərəfdaşlıq edir.

## Beynəlxalq Test Agentliyi (BTA)

12 iyul 2019-cu il tarixdə AMADA və BTA əməkdaşlıq müqaviləsi imzalamışlar. AMADA-nın BTA ilə tərəfdaşlığı test keçirmə, araşdırma, idmançıların bioloji pasportları sahələrində məlumat və təcrübə mübadiləsi və digər qarşılıqlı maraq təşkil edən sahələrdə əməkdaşlığı əhatə edir. Müqavilə, həmçinin AMADA-nın, BTA-nın xahişi ilə BTA adından Nümunə Toplanması üçün Səlahiyyətli Qurum kimi çıxış etməsini nəzərdə turur.

Sözügedən müqavilənin imzalanması, qabaqcıl təcrübədən faydalanmaq məqsədilə beynəlxalq əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi və daha yüksək nəticələrin əldə edilməsi üçün milli və beynəlxalq antidopinq səylərinin koordinasiyası baxımından əhəmiyyətlidir.

## Milli Antidopinq Təşkilatları (MADT) və Nümunə Toplanması üçün Səlahiyyətli Qurumlar (NTSQ)

AMADA öz test keçirilməsini daha effektiv planlaşdırması və daha yaxşı məlumat mübadiləsi məqsədilə digər milli antidopinq təşkilatları və özəl nümunə toplama üçün səlahiyyəti olan qurumlarla sıx əməkdaşlıq edir. 2019-cu ildə AMADA Rusiya Federasiyası, Özbəkistan, Bolqariya və Moldovanın MADT-ları ilə əməkdaşlıq müqavilələri imzalamış və, həmçinin Almaniyada yerləşən beynəlxalq nümunə toplama üçün səlahiyyətli qurum olan "PWC" şirkəti ilə müqaviləsini yeniləmişdir.

# Azərbaycan Antidopinq
## xronoloji qrafiki

**2003**

### 04 Noyabr
Avropa Şurası Antidopinq Konvensiyasının ratifikasiyası (təsdiqlənməsi)

**2004**

### 11 Fevral
Avropa Şurası Antidopinq Konvensiyasının Əlavə Protokolunun ratifikasiyası (təsdiqlənməsi)

**2007**

### 23 İyul
Birləşmiş Millətlər Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyasına qoşulma

**2016**

### 29 Noyabr
"İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanununun tətbiqi

### 23 Dekabr
Qanuna əsasən Azərbaycan Milli Antidopinq Agentliyi təsis edildi

## 2017

### 04 Dekabr

Ukrayna Milli Antidopinq Mərkəzi
ilə Əməkdaşlıq Sazişi

UEFA ilə əməkdaşlıq sazişi

### 30 Noyabr

Belarusiya Milli Antidopinq Agentliyi
ilə Əməkdaşlıq Sazişi

### 21 Noyabr

Rusiya Antidopinq Agentliyi
ilə Əməkdaşlıq Sazişi

### 22 Fevral

Azərbaycan Milli Antidopinq Agentliyi Ümumdünya Antidopinq Məcəlləsini imzalamışdır

### 20 Fevral

Azərbaycanda antidopinq sisteminin inkişafı və gücləndirilməsi üzrə Ümumdünya Antidopinq Agentliyi, Polşa və Azərbaycan arasında əməkdaşlığa başlanılmışdır

### 10 Fevral

Azərbaycan Milli Antidopinq Agentliyi Milli Antidopinq Təşkilatları İnstitutunun üzvü oldu

## 2019

### 12 İyul

Beynəlxalq Test Agentliyi
ilə Əməkdaşlıq Sazişi

### 26 İyun

Bolqarıstanın Antidopinq Mərkəzi
ilə Əməkdaşlıq Sazişi

### 03 İyun

Moldova Milli Antidopinq Təşkilatı
ilə Əməkdaşlıq Sazişi

### 06 Fevral

Azərbaycanda Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupunun monitorinq səfəri keçirilib

### 09 Mart

Türkiyə Antidopinq Komissiyası ilə Əməkdaşlıq Sazişi

### 12 İyul

Tərəflər arasında məlumat mübadiləsi ilə bağlı "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklərin həyata keçirilməsi

### 14-15 Noyabr

Azərbaycan Ümumdünya Antidopinq Agentliyinin Bakıda İcraiyyə Komitəsinin və Təsisçilər Şurasının iclaslarına ev sahibliyi etdi

# İdmançıların Cəlb Edilməsi

AMADA idmançıların fikirlərinə xüsusi əhəmiyyət verir və öz fəaliyyətində bunu nəzərə alır. AMADA üçün idmançıların dopinqlə mübarizəyə qatılması, onların əməkdaşlığa cəlb edilməsi və onlara bərabər imkanların təmin edilməsi əhəmiyyətlidir.

## İdmançılar Məsləhətçi Komissiyası

Bunu nəzərə alaraq 2019-cu ildə AMADA özünün idmançı ictimaiyyəti ilə əməkdaşlığının artırılması üzrə davam edən səylərinin bir nümunəsi kimi İdmançılar Məsləhətçi Komissiyasını yaratmışdır. Onun vəzifəsi AMADA-nın fəaliyyətinin müxtəlif aspektlərini müzakirə etmək və tövsiyələr hazırlamaqdır.

Komissiyasının vəzifələri əsasən əsas missiyanın dəstəklənməsi, idmaçılarla əlaqədar xüsusi layihələrin idarə edilməsi, idmançılar və AMADA arasında əlaqələndirici xidmətin göstərilməsi və Komissiyanı müxtəlif antidopinq tədbirlərində təmsil edilməsindən ibarətdir. AMADA Komissiya ilə birlikdə əhəmiyyətli antidopinq məsələlərini müzakirə edir, həmçinin idmançıların rəylərini öz fəaliyyətinə inteqrasiya edilməsi üçün əməkdaşlıq edir.

Komissiya sadəcə olaraq idmançıların təmsil edildiyi qurum deyil, o, həmçinin AMADA-ya təmiz idmanın gələcək inkişafı və təşviqi üzrə atılan addımlara dair məsləhət verən mühüm qurumdur

## AMADA İdmançılar Məsləhətçi Komissiyası

| Ad | İdman |
|---|---|
| İlham Zəkiyev | Paracüdo |
| Hacı Əliyev | Güləş |
| Rəsul Çunayev | Güləş |
| Fəridə Əliyeva | Karate |
| Fuad Qurbanov | Atıcılıq |
| Aynur Məmmədova | Parataekvondo |
| Nazim Babayev | Atletika |
| Ayan Xankişiyeva | Velosiped |
| Siyana Vasileva | Gimnastika |
| Kamran Şahsuvarlı | Boks |
| Rüstəm Orucov | Cüdo |
| Ruslan Abışov | Futbol |

# AMADA İdmançılar Məsləhətçi Komissiyası üzvlərinin nailiyyətləri

AMADA İdmançılar Məsləhətçi Komissiyasının üzvləri gender bərabərliyi və yaş təmsilçiliyi prinsipləri əsasında seçilmiş, müxtəlif idman növlərindən olan 12 idmançıdan ibarətdir. Bütün üzvlərin idman karyeraları ərzində əldə etmiş mühüm nailiyyətləri var. Üzvlərin iştirak etdiyi beynəlxalq yarışların və əldə etdikləri medal saylarının siyahısı aşağıdakı cədvəldə təqdim edilir.



| Tədbirlər | Gümüş | Qızıl | Bürünc |
|---|---|---|---|
| Olimpiya Oyunları | 1 | 0 | 3 |
| Dünya Çempionatları | 2 | 8 | 0 |
| Avropa Çempionatları | 3 | 15 | 2 |
| Avropa Oyunları | 1 | 3 | 0 |
| İslam Həmrəylik Oyunları | 2 | 4 | 0 |
| U-21 Dünya Çempionatı | 0 | 0 | 1 |
| IWAS Dünya Çempionatı | 0 | 1 | 0 |
| Yay Universiadası | 0 | 2 | 0 |
| Yeniyetmələrarası Avropa Çempionatı | 0 | 1 | 0 |
| U-23 Avropa Çempionatı | 0 | 1 | 0 |
| Gənclərarasl Olimpiya Oyunları | 0 | 0 | 1 |
| Azərbaycan Çempionatı | 0 | 7 | 0 |
| Paralimpiya Oyunları | 0 | 2 | 1 |
| Dünya Kuboku | 2 | 0 | 0 |
| **Ümumi:** | **11** | **44** | **8** |

# Blokçeyn

**5000**
Ümumi

**100**
Məlumat qrafaları

**4**
Server

**25**
İdman növü

**5**
Bölmə

9

# İnnovasiyalar

4
Buraxılış dərəcəsi

- AMADA
- Gənclər və İdman Nazirliyi
- Milli Federasiyalar
- İdmançılar

# Hakaton

**48 Saat** fasiləsiz

**2** Əsas tapşırıq

**8 Komanda** hər biri 3 nəfərdən ibarət

**2** Əlavə tapşırıq

INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi

# iQuiz

Məhdud qabiliyyətli idmançılar üçün dünyada ilk audio əsaslı interaktiv multimedia antidopinq viktorina cihazı



# İnnovasiyalar

## İnnovativ Yanaşma

AMADA dopinqlə mübarizə sahəsində bütün maraqlı tərəflər arasında loyallıq, şəffaflıq və etimadı artırmaq üçün bu sahədə istifadə edilən sistem və həllərin texnoloji yeniliklərlə dəstəklənməsinə (blokçeyn əsaslı sistemlər, süni intellekt və proqnozlaşdırma sistemləri, maşın öyrənməsi və s.) nail olmağa çalışır:

- ✓ Məlumat axınlarından məlumatı əldə etmək üçün metodikalarından istifadə;
- ✓ Ənənəvi üsulları avtomatlaşdırılmış alqoritmlərlə əvəz etmək;
- ✓ Məlumatı öyrənmək, proqnozlaşdırmaq, imkan və ya təhlükəli riskləri müəyyən etmək üçün Maşın Öyrənməsindən istifadə etmək;
- ✓ Şablonların tanınmasını istifadə etməklə istənilən sistem və ya məlumat barədə xarakteristika və ya verilənlərin təşkilini aşkarlamaq;
- ✓ Gələcəyi təxmin etmə analitikası üçün şablon tanıma alqoritmlərindən istifadə;
- ✓ Vaxtında dəyişikliklər etmək üçün meylləri davamlı monitorinq etmək;
- ✓ Sonrakı tədqiqat layihələri üçün verilənlərin analitik proseslərinin nəticələrini istifadə etmək;
- ✓ Təhqiqat, Təhsil, Test şöbələrini, onlar tərəfindən Antidopinq Proqramının təkmilləşdirilməsi üçün istifadə edə biləcəkləri məlumatları təmin edə biləcək rəqəmsal alətlərin onlayn kataloqunu hazırlamaq.

## Texnoloji İrəliləyişlər

### Blokçeyn əsaslı reyestr

AMADA idmançıların məlumat bazası, idmançıların yarışlarda qeydiyyatı və antidopinqlə əlaqəli məlumat bazası daxil olmaqla blokçeyn texnologiyası əsasında ölkə idmançılarının vahid reyestrini yaradır.

Sistem hər bir idmançının "rəqəmsal klonu"nu saxlayacaq və idmançıların özləri barədə məlumatla yanaşı onların həkim və məşqçiləri barədə də məlumatı saxlayacaq. Blokçeyn texnologiyasının istifadəsi idmançı məlumatlarının itkisi və ya saxtalaşdırılması təhlükəsini aradan qaldıracaq. İdmançı barədə bütün fərdi məlumat ən müasir kriptoqrafik alqoritmlərlə mühafizə olunacaq. AMADA reyestri 2020-ci ilin sonunadək həyata keçirməyi planlaşdırır.

AMADA hesab edir ki, bu layihə blokçeyn texnologiyalarının antidopinq sahəsində tətbiqini genişləndirməklə yanaşı, informasiya ilə iş vərdişlərini daha da təkmilləşdirəcək.

### Blokçeyn texnologiyasının üstünlükləri

## Desentralizasiya.

Zəncirdə bir serverdən asılılıq mövcud deyil. Zəncirin hər bir iştirakçısı serverdir. Hətta bir neçə kompüterin sıradan çıxması, məlumat itkisinə səbəb olmur.

## Şəffaflıq.

Əməliyyatlar üzrə qeydlər saxlanılır. Bu məlumatlar dəyişdirilə bilməz.

## Məhdudiyyətsizlik.

Blokçeyn superkompüterlə müqayisə edilir, çünki limitsiz qeydlərə malik ola bilər.

## Dəyişməzlik.

Blokçeyn kontekstində bir dəfə blokçeynə daxil edilən məlumat, heç bir zaman müdaxiləyə məruz qala bilməz.

## iQuiz

AMADA ÜADA-nın maarifləndirmə viktorinasını əsas götürərək, görmə imkanları məhdud olan idmançılar üçün dünyada ilk audio əsaslı "iQuiz" Antidopinq Viktorina cihazını yaratmışdır.

Bütün idmançılara antidopinq təhsilinin çatdırılması və bərabər imkanlar təmin etməyin əhəmiyyətini anlayan AMADA İBSA Cüdo Qran-Pri Bakı 2019 yarışları zamanı xüsusi təşviqat proqramını hazırlamış və təqdim etmişdir.

Təşviqat proqramı zamanı AMADA-nın təhsil heyəti, Agentlik tərəfindən yaradılmış görmə imkanları məhdud olan idmançılar üçün dünyada ilk interaktiv, audio əsaslı, multimedia "iQuiz" Antidopinq Viktorina cihazını təqdim etmişdir. "iQuiz", antidopinq tədrisi üçün dəstək aləti kimi istifadə edilə bilər. Tədbirdə iştirak edən 34 ölkənin idmançıları öz antidopinq biliklərini sınayaraq AMADA tərəfindən mükafatlandırılıblar.

## Hakaton

AMADA mütərəqqi ideyaları olan gənc nəslin innovasiya potensialından faydalanmağa və onları dopinqlə mübarizəyə cəlb etməyə çalışır. AMADA inkubasiya, akselerasiya(sürətləndirmə) və tədqiqat mərkəzində 48 saat ərzində iki əsas və iki əlavə tapşırıqları həll etməyə çalışan proqramçı və mühəndislərdən ibarət 8 komandanın iştirakı ilə hakaton təşkil etmişdir. Qalib komandanın hazırladığı prototip hazırda işlək məhsulun hazırlanması üçün istifadə edilir. Müsabiqə, biznes yaradıcıları, tələbələr, sahibkarlar, assosiasiyalar, şirkətlər, proqramçılar, istifadəçilər, iş axtaranlar, dizaynerlər və sahə üzrə mütəxəssislər üçün açıq idi.



## Qlobal antidopinqin inkişafı üzrə istiqamətlərə AMADA-nın töhfəsi

- Təhsil
- Milli Antidopinq Təşkilatlarının İnkişafı
- Ədalət Mühakiməsinə Çıxış
- Gender Bərabərliyi
- Hüquqi Tənzimləmə
- İfşaedənlərin Müdafiəsi
- Məcəlləyə Uyğunluğun Monitorinqi
- Antidopinq Konvensiyasına Uyğunluğun Monitorinqi

# 10 AMADA Qlobal Tərəfdaş



**32**
İşgüzar səfər

**20**
Şəhər

**15**
İşçi görüşləri

**14**
Konfrans və Simpoziumlar

**10**
Hökümətlərarası görüşlər

**2**
Monitorinq səfərləri

**9**
Ekspert qismində üzvlük

# Beynəlxalq Fəaliyyət

AMADA təmiz idmana sadiqdir və beynəlxalq tədbirlərdə, müzakirələrdə fəal iştirak etməklə və öz təcrübəsini paylaşmaqla qlobal tərəfdaşlığın qurulmasında fəal rol oynayır. İl ərzində AMADA müxtəlif görüşlərdə, simpoziumlarda, hökumətlərarası görüşlərdə və monitorinq səfərlərində iştirak etmiş, beynəlxalq işçi görüşlərini keçirmiş və beynəlxalq təşkilatların işlərinə töhfə vermişdir.

## Yanvar

**29** — **Strasburq, Fransa**
Təşkilatçı **Avropa Şurası (CAHAMA)**
Hökumətlərarası görüş

**30** — **Strasburq, Fransa**
Təşkilatçı **Avropa Şurası (T-DO Lİ)**
Hökumətlərarası görüş

## Mart

**12** — **Lozanna, İsveçrə**
Təşkilatçı **iNADO**
Vorkşop

**13-14** — **Lozanna, İsveçrə**
Təşkilatçı **ÜADA**
Simpozium

**15** — **Lozanna, İsveçrə**
Təşkilatçı **T-CO COMP**
Hökumətlərarası görüş

## Aprel

**4-5** — **Afina, Yunanıstan**
Təşkilatçı **Avropa Şurası**
Antidopinq Simpoziumu

**15-16** — **Montreal, Kanada**
Təşkilatçı **ÜADA NADO Məsləhətçi Qrupu**
İşçi görüşü

## May

**6-7** — **Buxarest, Rumıniya**
Təşkilatçı **Avropa Şurası (CAHAMA)**
Hökumətlərarası görüş

**7-8** — **Buxarest, Rumıniya**
Təşkilatçı **Avropa Şurası (T-DO)**
Hökumətlərarası görüş

**16** — **Montreal, Kanada**
Təşkilatçı **ÜADA**
Təsisçilər Şurası

## İyun

**3** — **Oslo, Norveç**
Təşkilatçı **NADO Leaders**
Sammit

**4** — **Oslo, Norveç**
Təşkilatçı **Biznesdə etika, dürüst idman və Norveçin Antidopinq Agentliyi üzrə Dünya Forumu**
Roundtable Conference

**5** — **Oslo, Norveç**
Təşkilatçı **iNADO**
Think Tank

**21-30** — **Minsk, Belarusiya**
Təşkilatçı **ÜADA**
2019 Avropa Oyunları üzrə Müstəqil Müşahidəçi

## İyul

**2** — **Strasburq, Fransa**
Təşkilatçı **T-DO WbP**
Ad Hoc qrupu görüşü

**3** — **Strasburq, Fransa**
Təşkilatçı **Avropa Şurası (T-DO HR)**
Ad Hoc qrupu görüşü

**4** — **Varşava, Polşa**
Təşkilatçı **Polşa Antidopinq Agentliyi (CEO)**
ÜADA-nın İcraiyyə Komitəsinə namizədlik

**17** — **Kopenhagen, Danimarka**
Təşkilatçı **Antidopinq Danimarka (CEO)**
ÜADA-nın İcraiyyə Komitəsinə namizədlik

**18** — **Paris, Fransa**
Təşkilatçı **Fransa Antidopinq Agentliyi (Prezident)**
ÜADA-nın İcraiyyə Komitəsinə namizədlik

**30** — **Vyana, Avstriya**
Təşkilatçı **Avstriyanın Federal Dövlət Xidməti və İdman Nazirliyi (Bölmə rəhbəri)**
ÜADA-nın İcraiyyə Komitəsinə namizədlik

## Avqust

**30** Tallin, Estoniya
Təşkilatçı
Estoniya Antidopinq Agentliyi (İcraçı direktor)
ÜADA-nın İcraiyyə Komitəsinə namizədlik

**28** Buxarest, Rumıniya
Təşkilatçı
İdman Nazirliyi
ÜADA-nın İcraiyyə Komitəsinə namizədlik

**27** Stokholm, İsveç
Təşkilatçı
Mədəniyyət Nazirliyi (Baş məsləhətçi)
ÜADA-nın İcraiyyə Komitəsinə namizədlik

**26** Helsinki, Finlandiya
Təşkilatçı
Təhsil və Mədəniyyət Nazirliyi (Baş məsləhətçi)
ÜADA-nın İcraiyyə Komitəsinə namizədlik

**3** Kuala Lumpur, Malayziya
Təşkilatçı
Malayziya Antidopinq Agentliyi
İşçi görüşü

## Sentyabr

**9** Strasburq, Fransa
Təşkilatçı
Avropa Şurasının səfirləri
ÜADA-nın İcraiyyə Komitəsinə namizədlik

**10** Strasburq, Fransa
Təşkilatçı
Avropa Şurası (T-DO Lİ)
Hökumətlərarası görüş

**11-12** Strasburq, Fransa
Təşkilatçı
Avropa Şurası (CAHAMA)
Hökumətlərarası görüş

## Oktyabr

**29-31** Paris, Fransa
Təşkilatçı UNESCO
Tərəflərin Konfransı

**24-25** Kopenhagen, Danimarka
Təşkilatçı Anti-Doping Danmark
Beynəlxalq Konferans

**24-25** Strasburq, Fransa
Təşkilatçı
Avropa Şurası (T-DO)
Hökumətlərarası görüş

**23-24** Strasburq, Fransa
Təşkilatçı
Avropa Şurası (CAHAMA)
Hökumətlərarası görüş

**13-16** Colorado Springs, ABŞ
Təşkilatçı Play the Game
Konferans

**10-11** Nijniy Novgorod, Rusiya
Təşkilatçı
Rusiya Federasiyası İdman Nazirliyi
Beynəlxalq İdman Forumu

**7-8** Montreal, Kanada
Təşkilatçı
WADA NADO Advisory Group
İşçi görüşü

## Noyabr

**4** Katovis, Polşa
Təşkilatçı iNADO
CEO Forum

**5-7** Katovis, Polşa
Təşkilatçı ÜADA
World Conference on Doping in Sport

**18** Strasburq, Fransa
Təşkilatçı
Avropa Şurası (T-DO WbP)
Ad Hoc Group Meeting

**19** Strasburq, Fransa
Təşkilatçı
Avropa Şurası (T-DO HR)
Ad Hoc Group Meeting

**20** Strasburq, Fransa
Təşkilatçı EPAS
İdmanda İnsan Haqqları üzrə Seminar

**27** Paris, Fransa
Təşkilatçı
Avropa Şurası (CAHAMA)
Hökumətlərarası görüş

**29** Moskva, Rusiya
Təşkilatçı İdman Nazirliyi
Beynəlxalq Konferans

## Dekabr

**16-17** Lefkoşa, Kipr
Təşkilatçı
Avropa Şurası (T-DO)

# Beynəlxalq İştirak

AMADA idmançıların hüquqlarının qorunmasına xüsusi diqqət göstərir. Qlobal antidopinq cəmiyyətinin tərəfdaşı kimi, AMADA beynəlxalq antidopinq fəaliyyətinin inkişaf etməsinin gender bərabərliyi, ifşaedənlərin müdafiəsi, insan hüquqları, idmançıların ədalət mühakiməsinə maneəsiz çıxışı, milli antidopinq təşkilatların inkişafı və ümumdünya təhsil istiqamətlərinə öz töhfəsini vermişdir. Təmiz idmanın və antidopinq fəaliyyətinin inkişafına həssas münasibətinə görə, AMADA müxtəlif beynəlxalq işçi qruplara dəvət almışdır. Bununla, AMADA-nın heyəti ekspert qismində beynəlxalq təşkilatların müxtəlif xüsusi və işçi qruplarının, habelə digər komitələrin üzvü seçilmişlər.

## Ölkə Təmsilçiliyi:

AMADA,
**Azərbaycan Nümayəndə heyəti kimi**

- Avropa Şurasının Monitorinq Qrupu (T-DO)
- Ümumdünya Antidopinq Agentliyi üzrə Avropa Şurasının Xüsusi Avropa Komitəsi (CAHAMA)
- YUNESKO-nun Tərəflərin Konfransı

## Təhsil

**ÜADA-nın Təhsil üzrə Daimi Komitəsinin üzvü (AMADA-nın direktoru)**

Vəzifələri:

- ÜADA rəhbərliyinə qısamüddətli təhsil strategiyaları və fəaliyyətinə, ÜADA-nın təhsil proqramlarına uzunmüddətli yanaşmalara, o cümlədən ÜADA tərəfindən maliyyələşdirilən sosial elmi tədqiqatların seçim prosesinə dair ekspert məsləhəti və tövsiyələr vermək.

**Antidopinq Konvensiyasının Monitorinq Qrupunun Təhsil üzrə Məşvərət Qrupunun üzvü (T-DO ED) (AMADA-nın təhsil şöbəsinin müdiri)**

Vəzifələri:

- Ekspert məsləhətini vermək və Avropa Şurası çərçivəsində Antidopinq Konvensiyası, Ümumdünya Antidopinq Məcəlləsi və Beynəlxalq Standartlarına dair bütün təhsil məsələlərində iştirak etmək.

## Milli Antidopinq Təşkilatlarının İnkişafı

**ÜADA-nın milli antidopinq təşkilatları üzrə məşvərət qrupunun üzvü (AMADA-nın direktoru)**

Vəzifələri:

- ÜADA rəhbərliyinə milli antidopinq təşkilatlarının effektiv dopinq nəzarəti strategiyaları və planlarının təşviqi üzrə proqramları və fəaliyyətləri, onların qısa və uzunmüddətli effektivliyinə dair ekspert məsləhəti və tövsiyələr vermək.

## Ədalət Mühakiməsinə Çıxış

**Avropa Şurasının "İdmançıların ədalət mühakiməsinə maneəsiz çıxışının təmin edilməsi" üzrə xüsusi işçi qrupunun sədr müavini (T-DO HR) (AMADA-nın direktoru)**

**Vəzifələri:**

- Sədrlə birlikdə antidopinq icraatında ədalətli mühakimə prosedurunun ümumi prinsipləri üzrə layihə sənədinin hazırlanması üzrə qrupun işinin əlaqələndirilməsi.

## Gender Bərabərliyi

**CAHAMA-nın Gender Bərabərliyi üzrə Məruzəçisi (AMADA-nın direktoru)**

**Vəzifələri:**

- CAHAMA hökumətlərarası qurumunun bütün siyasətləri, prosedurları, qərarları və mandatlarında gender bərabərliyini təşviq etmək və dəstəkləmək.

## Hüquqi Tənzimləmə

**Antidopinq Konvensiyasının Monitorinq Qrupunun Hüquqi Məsələlər üzrə Məşvərət Qrupunun üzvü (T-DO LI) (AMADA-nın hüquq şöbəsinin müdiri)**

**Vəzifələri:**

- Ekspert məsləhətini vermək və Avropa Şurası çərçivəsində Antidopinq Konvensiyası, Ümumdünya Antidopinq Məcəlləsi və Beynəlxalq Standartlara dair bütün hüquqi məsələlərdə iştirak etmək, o cümlədən Avropa Şurasının Monitorinq Qrupunun digər hökumətlərarası qurumlarına məsləhət vermək.

## İfşaedənlərin Müdafiəsi

**Antidopinq Konvensiyasının Monitorinq Qrupunun İfşaedənlərin Müdafiəsi üzrə Məşvərət Qrupunun üzvü (T-DO WbP) (AMADA-nın hüquq şöbəsinin müdiri)**

**Vəzifələri:**

- Ekspert məsləhətini vermək və antidopinq təşkilatları və üzv dövlətlərə ifşaedənlərin müdafiəsi üzrə təlimata dair layihə sənədinin hazırlanmasında iştirak etmək.

## Məcəlləyə Uyğunluğun Monitorinqi

**II Avropa Oyunları üçün ÜADA-nın Müstəqil Müşahidəçi Qrupunun üzvü (AMADA-nın direktoru)**

**Vəzifələri:**

- Dopinq nəzarəti və nəticələrin emalı proseslərinin bütün mərhələlərini monitorinq etmək və hesabat vermək, prosedurları Ümumdünya Antidopinq Məcəlləsi və Beynəlxalq Standartlara raiyət baxımından qiymətləndirmək, dopinq nəzarəti proqramının həyata keçirilməsi üçün səlahiyyətli quruma yerində məsləhət və təlimat vermək.

## Antidopinq Konvensiyasına Uyğunluğun Monitorinqi

**Antidopinq Konvensiyasının Monitorinq Qrupunun Qiymətləndirmə Qrupunun üzvü (AMADA-nın direktoru)**

**Vəzifələri:**

- Avopa Şurasının üzv ölkəsinin Antidopinq Konvensiyasının tətbiqini qiymətləndirmək.

# Qısaltmaların siyahısı

| | |
|---|---|
| **AGOF** | Avropa Gənclər Olimpiya Festivalı |
| **AK** | Apellyasiya Komitəsi |
| **AM** | Anlaşma Memorandumu |
| **AMADA** | Azərbaycan Milli Antidopinq Agentliyi |
| **AQP** | Antidopinq Qayda Pozuntusu |
| **AŞ** | Avropa Şurası |
| **BF** | Beynəlxalq Federasiya |
| **BOK** | Beynəlxalq Olimpiya Komitəsi |
| **BST** | Beynəlxalq Standartlaşma Təşkilatı |
| **BTA** | Beynəlxalq Test Agentliyi |
| **CAHAMA** | Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Ad Hoc Avropa Komitəsi |
| **DGK** | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi |
| **DİN** | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi |
| **DNİ** | Dopinq Nəzarəti İnspektoru |
| **DNM** | Dopinq Nəzarəti Müşaiyətçisi |
| **DSX** | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti |
| **GİN** | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| **İAM** | İdman Arbitraj Məhkəməsi |
| **İBP** | İdmançının Bioloji Pasportu |
| **İGD** | İdman Göstəricilərini artıran Dərman |
| **İİK** | İşlərin İdarəedilməsi Komissiyası |
| **İK** | İntizam Komitəsi |
| **İKH** | İdmançıya Köməkçi Heyət |
| **İMK** | İdmançılar Məsləhətçi Komissiyası |

| | |
|---|---|
| **MADT** | Milli Antidopinq Təşkilatı |
| **MADTİ** | Milli Antidopinq Təşkilatları İnstitutu |
| **MF** | Milli Federasiya (Respublika İdman Federasiyası) |
| **MOK** | Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi |
| **MPK** | Azərbaycan Respublikasının Milli Paralimpiya Komitəsi |
| **MTQ** | Milli Test Qrupu |
| **NTH** | Nümunə Toplanması Heyəti |
| **NTSQ** | Nümunə Toplanması üçün Səlahiyyətli Qurum |
| **QəAN** | Qeyri-əlverişli Analiz Nəticəsi |
| **QNİ** | Qan Nəzarəti İnspektoru |
| **QTQ** | Qeydiyyata alınmış Test Qrupu |
| **RİF** | Respublika İdman Federasiyası (Milli Federasiya) |
| **TBP** | Test Bölüşdürmə Planı |
| **T-DO** | Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupu |
| **T-DO ED** | Təhsil üzrə Məşvərət Qrupu (T-DO) |
| **T-DO HR** | "İdmançıların ədalət mühakiməsinə maneəsiz çıxışının təmin edilməsi" üzrə xüsusi işçi qrupu (T-DO) |
| **T-DO LI** | Hüquqi Məsələlər üzrə Məşvərət Qrupu (T-DO) |
| **T-DO WbP** | İfşaedənlərin Müdafiəsi üzrə Məşvərət Qrupu (T-DO) |
| **Tİİ** | Terapevtik İstifadə üçün İstisna |
| **TİİK** | Terapevtik İstifadəyə İcazə Komitəsi |
| **ÜADA** | Ümumdünya Antidopinq Agentliyi |
| **ÜADM** | Ümumdünya Antidopinq Məcəlləsi |
| **YUNESKO** | Birləşmiş Millətlər Təşkilatının mədəniyyət, elm və təhsil sahəsi üzrə ixtisaslaşmış təşkilatı |

AMADA

+994 12 599 08 28
+994 50 218 82 06

office@amada.az
www.amada.az

2019